

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Ərdoğan: "Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasına tarixi fürsət yaranıb"



2

SƏS

№ 229 (7154)

12 dekabr 2024-cü il.
Qiymәti 60 qәpik

## "Azərbaycanda mövcud olan dinlər və mədəniyyətlər arasındakı dialoq bütün dünya üçün nümunədir"



2

**Prezident İlham Əliyev Amerika İsrail İctimai Əlaqələr Komitəsinin prezidentini və yeni seçilmiş prezidentini qəbul edib**

# ƏBƏDİYAŞAR LİDER!

## 12 dekabr - Ümummilli lider Heydər Əliyevin anım günüdür



### Messi və komanda yoldaşları Bakıda azarkeşlərlə görüşüblər



5

### "Heydər Əliyevin arzusu Türk dövlətləri arasında birlik yaratmaq idi" - HULUSİ KILIÇ



8

### "Azərbaycan həmişə çoxmillətli, çoxkonfessiyalı diyar olub"



10

### Taksilərdə POS-terminallar nə vaxt quraşdırılacaq?



16

### Saxtalara "əlvida" deyirik



12

# ”Azərbaycanda mövcud olan dinlər və mədəniyyətlər arasındakı dialoq bütün dünya üçün nümunədir”

## Prezident İlham Əliyev Amerika İsrail İctimai Əlaqələr Komitəsinin prezidentini və yeni seçilmiş prezidentini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Amerika İsrail İctimai Əlaqələr Komitəsinin (AIPAC) prezidenti Maykl Tuçini və Komitənin yeni seçilmiş prezidenti Bernard Kaminetskini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, qəbula görə minnətdarlıqlarını bildirən Maykl Tuçin və Bernard Kaminetski dövlətimizin başçısı ilə əvvəlki görüşlərini məmnunluqla xatırladılar.





Onlar Azərbaycanda mövcud olan dinlər və mədəniyyətlər arasındakı dialoqun, ölkəmizdə müxtəlif dini konfessiyaların, etnik qrupların nümayəndələrinin qarşılıqlı hörmət və harmoniya şəraitində yaşamalarının bütün dünya üçün nümunə olduğunu vurğulayaraq, dövlət səviyyəsində aparılan bu siyasətə görə Prezident İlham Əliyevə təşəkkür etdilər.

Qonaqlar ölkəmizə səfər çərçivəsində Quba rayonunda, Qırmızı Qəsəbədə olduqlarını dedilər və qeyd etdilər ki, bu qəsəbənin özünün mövcudluğu, onun inkişafı, orada yaradılmış nadir yəhudi muzeyi də dünya üçün bir nümunədir.

Maykl Tuçin və Bernard Kaminetski, həmçinin Azərbaycanda yəhudi icmasının fəaliyyəti və dini ayinlərini həyata keçirməsi üçün yaradılan şəraitə, yəhudi ibadət ocaqlarına dövlət səviyyəsində göstərilən qayğıya görə minnətdarlıqlarını ifadə etdilər. Dövlətimizin başçısı da öz növbəsində qeyd etdi ki, Azərbaycanda müxtəlif dini və etnik konfessiyaların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşamaları xalqımızın həyat tərzidir və əsrlər boyu ölkəmizdə bu cür harmonik abhava mövcud olub. Prezident İlham Əliyev vurğuladı ki, bütün bunlar, eyni zamanda, Azərbaycanda həyata keçirilən dövlət siyasətinin tərkib hissəsidir və dövlət siyasəti çərçivəsində dəstəklənir.

Dövlətimizin başçısı Azərbaycanın dinlər və mədəniyyətlər arasında dialoq prosesinə beynəlxalq səviyyədə ciddi töhfə verdiyini və Bakının bu xüsusda aparılan müzakirələrin ev sahibi olduğunu qeyd etdi. Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



# Ərdoğan: ”Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasına tarixi fürsət yaranıb”

Ümid edirik ki, Qarabağın işğaldan azad edilməsi sayəsində yaranan tarixi fürsət Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasına töhfə verəcək. AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada Türkiyə səfirlərinin 15-ci konfransında çıxışı zamanı bildirib.

Dövlət başçısı qeyd edib ki, Türkiyə münaqişələr və müharibələrlə dolu bir bölgədə yerləşir.

”Əminəm ki, türk diplomatiyası bölgəmizdə sülh və sabitliyin təmin edilməsi üçün səylərini davam etdirəcək”, - deyə Ərdoğan vurğulayıb. Prezident Türkiyənin müdafiə sənayesinin uğurlarına diqqət çəkərək, yerli hərbi-sənaye kompleksinin inkişafı ilə bağlı qərarın ”Ankaranın müttəfiqlərinin adekvat dəstəyinin olmamasına cavab olaraq qəbul edildiyini” xatırladıb. ”Sevindirici haldır ki, bu gün Türkiyənin müdafiə təyinatlı məmulatlara olan tələbatının 80 faizə qədəri yerli müəssisələr hesabına ödənilir”, - deyə Türkiyə lideri qeyd edib.

Suriyadakı vəziyyətə toxunan Ərdoğan əmin edib ki, Ankara suriyalı qardaşlara hər cür dəstəyi verməyə davam edəcək. ”Ümid edirəm ki, Suriyadakı yeni administrasiya öz cəmiyyətinin bütün təbəqələrinin maraqlarını nəzərə alacaq”, - deyə siyasətçi əlavə edib.

# ”Xarici hökmranlıq çox vaxt xalqın öz milli kimliyini və suverenliyini qoruyub saxlamaq səylərinə maneə törədir”

## Bakı Təşəbbüs Qrupu Papa Fransiskə Korsikanın dekolonizasiyası prosesinə dəstək müraciəti ünvanlayıb

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov Roma Papası Fransiskə Korsikanın dekolonizasiyası prosesinə dəstək müraciəti ünvanlayıb. Müraciətdə deyilir: ”Zati-müqəddəsləri, Sülh, ədalət və bütün xalqların ləyaqətinə daim göstərdiyiniz sarsılmaz dəstəyinizi yüksək qiymətləndirərək, dərin minnətdarlıq hissi ilə bu məktubu Sizə ünvanlamaqdan qurur duyuram.

Mən 2023-cü ilin iyul ayında Bakıda keçirilmiş Qoşulmama Hərəkatının (QH) Koordinasiya Bürosunun nazirlər toplantısı çərçivəsində təsis edilmiş beynəlxalq qeyri-hökumət təşkilatı olan Bakı Təşəbbüs Qrupunun (BTQ) icraçı direktoru kimi sizə bu məktubu yazmaq şərəfinə nail olmuşam. Qeyd etmək istərdim ki, təşkilatın əsas məqsədi dekolonizasiya proseslərini dəstəkləmək, müstəmləkəçilik və müstəmləkəçiliyin yeni təzahürlərinə qarşı mübarizə aparmaqdır.

Qoşulmama Hərəkatının nizamnaməsində təsisçilər tərəfindən qeyd edilir: ”Xalqların xarici əsarətə, hökmranlığa və istismara məruz qalması əsas insan hüquqlarının pozulmasıdır, BMT Nizamnaməsinə ziddir və tez bir zamanda aradan qaldırılmalı olan bir




şərdir”.

BTQ hələ də müstəmləkəçilikdən əziyyət çəkən ölkə və ərazilərdən olan müstəqillik tərəfdarlarının siyasi partiya və hərəkatlarından nümayəndələri bir araya gətirən beynəlxalq platformadır. Lakin bəşər tarixinə damğasını vurmuş saysız-hesabsız fəlakətlər arasında müstəmləkəçiliyin XXI əsrdə də dini, etnik, coğrafi və mədəni sərhədləri aşaraq davam etdiyini müşahidə etmək dərin məyusluq doğurur.

BTQ-nin Qoşulmama Hərəkatı çərçivəsində yaradılması təsadüfi hadisə deyil. Əksinə, bu, 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrliyi dövründə və hazırda Qoşulmama Hərəkatı ”Troyka”sının üzvü olaraq Azərbaycanın fəal iştirak və töhfəsinin məntiqi davamıdır. Beynəlxalq hüquqa əsaslanan fəaliyyəti nəticəsində BTQ BMT qərargahları daxil olmaqla, dünyanın müxtəlif ölkələrində təxminən 20-yə yaxın beynəlxalq konfrans təşkil edib.

Noyabrın 11-dən 22-dək Bakıda keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində BTQ öz fəallığı ilə xüsusi seçilmişdir. Müasir dünyada müstəmləkəçilik və neomüstəmləkəçilik təcrübələrini qınayan təxminən 10 tədbir təşkil edilmişdir. Tədbirlərdə Korsika, Kanaki (Yeni Kaledoniya), Martinika, Fransız Qvianası, Qvadelupa, Boneyr, Sent-Martin və Mayotdan olan nümayəndələrin iştirakı böyük töhfə vermişdir.

Sizin dekolonizasiya prosesinə göstərdiyiniz diqqət beynəlxalq ictimaiyyətə məlumdur. Martın 30-31-də Vatikan şəhərində keçirilmiş ”Müstəmləkəçilik, dekolonizasiya və yeni müstəmləkəçilik: Sosial ədalət və ümumi rifah perspektivi” adlı forumda söylədiyiniz sözlər çox təsirli idi: ”Xalqların güc vasitəsilə və ya mədəni və siyasi nüfuzla əsarət altına alınması və istismarı cinayətdir”.

Zati-müqəddəsləri, Dekabrın 15-də Korsikaya planlaşdırdığınız səfəriniz barədə bu yaxınlarda xəbər tutdum. Kardinal Fransua-Xavier Bustillonun dediyi kimi, ”Korsika katolik dini ənənəsini qoruyub saxlamış bir torpaqdır”, bu xalq müasir idarəetmə dinamikaları qarşısında öz unikal kimliyini, mədəniyyətini və dəyərlərini qorumaq üçün uzun müddətdir mübarizə aparmaqda davam edir.

Korsikanın tarixi onun dilində, adət-ənənələrində və fərqli irsində təcəssüm olunan mədəni zənginliklərlə doludur. Lakin xarici hökmranlıq çox vaxt xalqın öz milli kimliyini və suverenliyini qoruyub saxlamaq səylərinə maneə törədir. Bu yaxınlarda Korsika xalqı hətta Korsika Assambleyasına adanın müstəmləkəsizləşdiriləcək ölkələr siyahısına daxil olunmasını tələb edən müraciət də təqdim etmişdir. Bundan başqa, noyabrın 19-da Marsel İnzibati Apelyasiya Məhkəməsinin qadağa qərarından sonra Korsika yenidən öz dilində danışmaq hüququndan məhrum olunmuşdur. Dekolonizasiya təkcə siyasi proses deyil, bu, bütün xalqlar üçün Allahın bəxş etdiyi ədalətin bərpasına doğru əxlaqi və mənəvi bir yoldur. Adaya səfəriniz zamanı Korsikadakı vəziyyəti nəzərə almanızı xahiş edirəm. İnanıram ki, Sizin varlığınız təkcə Korsika xalqına deyil, həm də müstəmləkəçilikdən əziyyət çəkən bütün xalqlara ümid işığı olacaqdır.

Kilsəyə rəhbərlik etdiyiniz bu çətin dövrlərdə Allahın hikməti və lütfü sizinlə olsun”.

# Milyonların qəlbində yaşayan
# Dahi Şəxsiyyət

***Müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini hər zaman böyük ehtiramla anırıq. Ümummilli Lider bəşəri dəyərlər zəminində xalqın müstəqillik məfkurəsini reallığa çevirməklə müasir dövlətçilik sistemimizin mükəmməl siyasi-ideoloji, iqtisadi və mənəvi dayaqlar sistemini yaradıb. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz xidmətləri olmuş Ümummilli Lider Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi Şəxsiyyətdir. Ulu Öndər fenomenal şəxsiyyət kimi Azərbaycan xalqı və dövlətçiliyi üçün çox böyük və əvəzedilməz işlər görmüşdür.***

XX əsr tarixində dahi Şəxsiyyət Heydər Əliyevin yaratdığı milli dövlətçilik tarixinin bizə bəxş etdiyi milli sərvətdir və onun dəyəri illər keçdikcə daha dərindən dərk olunur. Bu Dahi İnsan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət idarəçiliyi və siyasi təlimlər elmini öz fəaliyyəti ilə diktə edən nadir şəxsiyyətlərdən biri idi. XX əsrin sonu Azərbaycan xalqının həyatında taleyüklü bir dövr kimi xarakterizə olunur. Həmin dövrdə baş verən







hadisələr Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışını şərtləndirdi. 1993-cü ildə Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəlişi ilə dövlətçiliyimiz yox olmaq təhlükəsindən xilas edilib. Bütün həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradıb.

Müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz xəzinə, bir məktəbidir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin hər birinin uğurlu gələcəyimizə hesablandığını görərik. Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Dahi Şəxsiyyət Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Bütün həyatı boyu həmişə xalqının yanında olan Heydər Əliyev 1990-cı ildə törədilmiş 20 yanvar faciəsi zamanı Azərbaycan xalqına qarşı həyata keçirilən siyasətə etirazını bildirdi. Bu etiraz ona qarşı siyasi təqiblərin daha da şiddətlənməsinə səbəb oldu. Çətin və mürəkkəb dövrdə Azərbaycana qayıdıb xalqı ilə birlikdə olmaq istəyən Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, iradəsini ortaya qoydu və vətənə döndü. 1990-cı il iyulun 20-də Bakıya qayıdan Heydər Əliyev iki gün sonra Naxçıvana yola düşdü.

## TARİXİ QƏRARLARIN QƏBULU

Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında Muxtar Respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan Parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul edildi. Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə oldu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul edildi. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan KP-nin fəaliyyəti dayandırıldı və onun bütün strukturları ləğv edildi.

1991-ci il sentyabrın 3-də Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri seçildi və müvafiq qanunvericiliyə əsasən həm də Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini oldu. Muxtar respublikanın düşmən hücumundan və sosial-iqtisadi böhrandan xilası istiqamətində mühüm qərarlar qəbul edən dahi rəhbər digər tərəfdən Azərbaycanı müstəqil, xalqımızı firavan görmək istəyirdi. Ümummilli liderimiz Heydər Əliyevin Ali Məclisin Sədri olarkən dünya azərbaycanlılarını bir ideya ətrafında - Vətənə və xalqa xidmət uğrunda birləşməyə səsləməsi də bu istəkdən, bu arzudan irəli gəlirdi. Çünki xalq arasında sağlam ideologiyaya əsaslanan birlik olmadan ölkəni düşdüyü bəlalardan qurtarmaq və inkişaf yoluna çıxarmaq mümkün deyildi. 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul edilməsi, bu mənada, xüsusi əhəmiyyətə malikdir.

Ulu Öndər həmin dövrdə xarici iqtisadi əlaqələrin qurulması sahəsində də mühüm addımlar atıb, 1992-ci ildə qonşu Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına səfərlər edib, keçirilən görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalayıb. Nəticədə hər iki dövlətlə iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər qurulub.

Muxtar Respublikanın dağılmış iqtisadiyyatının, xüsusilə də kənd təsərrüfatının dirçəldilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi də görkəmli dövlət xadiminin diqqət mərkəzində olub. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilib, bu islahatlar aqrar bölmədə irəliləyişlərə səbəb olub.

## TARİXİMİZİN MÜHÜM HADİSƏSİ

Müstəqil Azərbaycanın Qurucusu Heydər Əliyev ən yeni tariximizin çətin anlarından şərəflə çıxaraq, müstəqilliyimizin gerçəkləşməsində və ictimai-siyasi həyatımızın bütün istiqamətləri üzrə inkişafın təmin edilməsində qarant rolunu oynadı. Ölkəmizin ictimai-siyasi həyatı, gələcəyi üçün daha mühüm bir hadisə 1992-ci il noyabrın 21-də yenə də Naxçıvanda baş verib: müstəqil Azərbaycanın ən qüdrətli partiyası olan Yeni Azərbaycan Partiyası yaradılıb.

*Ardı Səh. 4*

# Milyonların qəlbində yaşayan
# Dahi Şəxsiyyət

Əvvəli Səh. 3

Azərbaycanın gələcəyinin təhlükə qarşısında qaldığı, dövlətimizin taleyinin həll olunduğu bir dövrdə yaranan Yeni Azərbaycan Partiyası milli dövlətçiliyimizin inkişafı üçün son dərəcə əhəmiyyətli olan yeni tarixi mərhələnin əsasını qoyub. Güclü sosial bazası, gerçəkliyə əsaslanan proqramı, ən önəmlisi isə Ulu Öndər Heydər Əliyev kimi lideri olan Yeni Azərbaycan Partiyasının siyasi səhnəyə çıxması iyirminci əsr Azərbaycan tarixinin mühüm hadisəsi idi.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycan dövlətçiliyinin formalaşması prosesinə təsirini göstərdi. YAP yaranandan, Azərbaycanın siyasi həyatında özünəməxsus rola malik olan təşkilat kimi qəbul edildi. Bunun da əsas səbəbi o idi ki, partiyanın rəhbərliyində Ulu Öndər Heydər Əliyev kimi Azərbaycan xalqının böyük hörmət və inam bəslədiyi Dahi Şəxsiyyət dayanırdı. YAP Azərbaycan dövlətinin müstəqilliyinin qorunub-saxlanılmasında və dövlətçiliyimizin inkişaf etdirilməsində müstəsna xidmətləri olan siyasi təşkilata çevrildi.

**”İCTİMAİ-SİYASİ SABİTLİK OLMASA, SAĞLAM İCTİMAİ-SİYASİ MÜHİT OLMASA, HEÇ BİR SOSİAL-İQTİSADİ PROQRAMDAN, YAXUD PROBLEMLƏRİN HƏLL EDİLMƏSİNDƏN SÖHBƏT GEDƏ BİLMƏZ”**



Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində əsaslı dönüş yarandı. Elmi əsaslarla beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Milli Ordu formalaşdı, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı. Atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salındı və bunun nəticəsində 1994-cü ilin mayında atəşkəsə nail olundu. Azərbaycan dövlətini dünya dövlətləri arasında irəli çıxaran, ölkəmizi parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi. şöhrətli siyasətçi və dövlət xadimi Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövr ərzindəki fəaliyyəti Azərbaycanın iqtisadi, sosial və mədəni tərəqqisinə, xalqımızın firavanlığı və xoşbəxtliyi, ölkəmizin dünya birliyində özünəməxsus layiqli yer tutması uğrunda mübarizəyə həsr edilmişdir. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi və yüksək idarəçilik bacarığı vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. ”Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz”, - deyirdi Heydər Əliyev.



Dahi Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - ”Əsrin müqaviləsi” imzalandı. Azərbaycanın ”Əsrin Müqaviləsi”ndən başlanan yolu haqqında Ümummilli Lider Heydər Əliyev belə deyib: ”1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən, neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha səmərəli istifadə etməkdən ibarətdir”.





”Əsrin Müqaviləsi”nin tərəfdaşı olan ölkələrin, demək olar ki, hər biri dünyada böyük nüfuza və gücə malik ölkə idi. Həmin dövr üçün bu ölkələrin Azərbaycanın tərəfdaşına çevrilmələri təhlükəsizliyimizin təminatına səbəb olan amillərdəndir. Bu müqavilə Azərbaycanın dövlət təhlükəsizliyinin təminatçısına çevrildi. Nəinki regionda, qlobal miqyasda nəhəng neft kəməri olan Bakı-Tbilisi-Ceyhanın əsası qoyuldu. ”Əsrin Müqaviləsi” sayəsində Azərbaycana birbaşa investisiyalar qoyuldu və ölkəmiz dünya bazarında iqtisadi müttəfiq kimi tanındı.

## HEYDƏR ƏLİYEV İDEYALARI YAŞAYIR

Qısa bir zamanda ölkənin sənaye ölkəsinə çevrilməsində, hərbi potensialının gücləndirilməsində, kadr potensialının hazırlanmasında və s. proseslərdə uğurlar müşayiət olundu və bütün sahələrdə dönüş yarandı. Böyük Şəxsiyyət Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycanın dünyaya inteqrasiya olunmasına töhfələrini verdi. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə, dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar yaratdı.

Bu gün ölkəmizdə Ümummilli Liderin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində, Azərbaycan uğurla inkişaf edir. Bu gün Azərbaycan dünyada müstəqil siyasət yürüdən nüfuzlu dövlət, etibarlı tərəfdaş kimi tanınır və qəbul olunur. Prezident İlham Əliyevin milli maraqlara əsaslanan məqsədyönlü siyasəti Azərbaycan xalqı tərəfindən birmənalı şəkildə dəstəklənir. 2003-cü ildən sonrakı dövrdə keçirilmiş bütün seçkilərin nəticələri bu dəstəyin bariz nümunəsidir. Bu gün Azərbaycan regionun, Avropanın və ümumilikdə, dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən bir ölkəyə çevrilmişdir. Beynəlxalq təşkilatlar regiondakı bütün layihələrdə Azərbaycanın mövqeyini nəzərə alırlar. Ötən dövrdə uğurlu inkişaf tarixini yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir.

Müstəqil Azərbaycanın bütün sahələrdə qazandığı möhtəşəm nailiyyətlər Ulu Öndər Heydər Əliyev ideyalarının təntənəsi və milli tariximizin şanlı səhifələridir. Zamanın axarında Azərbaycan da, həyatımız da tamamilə dəyişib. Vətəni və xalqı qarşısında misilsiz xidmətlər göstərmiş Heydər Əliyevin ideyaları yaşayır, yollarımızı daim işıqlandırır.

***Zümrüd BAYRAMOVA***

# Şəhər içərisində şəhər

**“İçərişəhər bizim milli sərvətimizdir, dünya memarlıq tarixinin möhtəşəm abidəsidir, Azərbaycan xalqının istedadının bariz nümunəsidir. Əsrlər boyu Azərbaycan xalqı İçərişəhəri, onun içində olan tarixi abidələri qoruyub və bundan sonra da əsrlər boyu qoruyacaq”, - deyə Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir.**

Buranın hər bir daşı neçə-neçə əsrləri yaşadır. Tarixdən boylanan səda daşlarda, küçələrdə həkk olunub. Hansı hadisələrə şahidlik etməyib İçərişəhərimiz? Üçqat qala divarları və Qız qalası möhtəşəm müdafiə istehkamının bu günümüzə gəlib çatan nişanələrdir. Burada küçələrin çox dar və dolanbac olması düşmən süvariləri küçə və dalanlara girə bilməsin deyə belə hörülmüşdür. ”İçərişəhərin hər bir küçəsi, hər bir tini, hər bir daşı qiymətlidir, tarixi əhəmiyyət kəsb edir. Qala divarları, Qız qalası, Şirvanşahlar sarayı, məscidlər, karvansaralar, muzeylər, digər tarixi abidələr qürur mənbəyimizdir”, - deyən Cənab Prezident qeyd edib ki, dünyada İçərişəhərə bənzəri olan ikinci yer yoxdur. Bəli, dünyada bənzəri olmayan İçərişəhər Bakının ən qədim hissəsi, eləcə də tarixi-memarlıq qoruğudur. Tarixi yaddaşımızın canlı şahidi olan İçərişəhər Bakının ən qədim hissəsidir və yaxşı qorunmuş qala divarları ilə əhatə olunub. ”İçərişəhər Bakı şəhərinin özəyidir”, - deyən Cənab Prezident Bakı şəhərini İçərişəhərsiz təsəvvür etməyin mümkün olmadığını bildirib: ”Bakı şəhərinin gözəlliyi bu gün heç kimə sirr deyil və Bakıya gələn hər bir xarici qonaq Bakıya heyran olur. Əminəm ki, hər gələn, xüsusilə ilk dəfə Bakıya gələn xarici qonaq mütləq İçərişəhərə baş çəkir, İçərişəhərlə, orada yerləşən abidələrlə tanış olur və bir daha görür ki, Azərbaycan xalqı böyük xalqdır, qədim xalqdır, istedadlı xalqdır. Ancaq böyük və istedadlı xalq belə möhtəşəm, dünya əhəmiyyətli abidə yarada bilər.”



## “İÇƏRİŞƏHƏR KİMİ İKİNCİ MƏKAN, İKİNCİ YER DÜNYADA YOXDUR”

Tunc dövründən bizə soraq verən ərazinin qədim tarixində neçə-neçə istilalar, vuruşmalar, müharibələr yer almışdır. İçərişəhəri çox vaxt şəhər içərisində şəhər adlandırırlar. Doğrudan da, qala darvazasından içəri ayaq qoyanda sanki başqa bir aləmə düşürsən - orta əsrlər şəhərinə. Buradakı üç abidə - Qız qalası, Şirvanşahlar Sarayı, Məhəmməd məscidi dünya, 28 abidə isə ölkə əhəmiyyətli abidələrdir.

İçərişəhərdə yerləşən məşhur memarlıq abidələri - Qız qalası, Qala divarları, Şirvanşahlar Saray Kompleksi, Məhəmməd Məscidi, Multanı, Buxara və Kiçik Karvansaralar, məscidlər, karvansaralar, hamamlar, muzeylər və digər memarlıq abidələri öz orijinallığı və təkrarolunmaz gözəlliyi ilə bəşər mədəniyyəti inciləri sırasında xüsusi yer tutur. Dövlət başçısının qeyd etdiyi kimi, ”Düzdür, dünyanın bir neçə ölkəsində köhnə şəhər məhəllələri vardır, onların bir neçəsində mən olmuşam. Amma tam əminliklə deyə bilərəm ki, İçərişəhər kimi ikinci məkan, ikinci yer dünyada yoxdur. Bu, bizim tarixi irsimizdir.”

Qız qalası və Şirvanşahlar Sarayı 2000-ci ildə UNESCO-nun Dünya Mədəni İrsi siyahısına daxil edilib. Azərbaycan Böyük İpək yolunun üzərində yerləşdiyinə görə, İçərişəhərdə çoxlu karvansara və bazar meydanları vardı. Yaraşıqlı görkəmi ilə seçilən ikimərtəbəli Karvansara XV əsrə aiddir. Karvansara cənub-şərq tərəfdən künc qalalarla mühafizə olunur ki, bu da onun müdafiə xarakterindən xəbər verir. İçərişəhərin üç əsas darvazası var - Şamaxı darvazası, Salyan darvazası və dəniz sahilinə açılan darvaza. Əsas girişlərdən biri Qoşa Qala qapısıdır ki, buna Şamaxı Darvazası deyilir. Qoşa Qala qapısından içəri daxil olan kimi geniş bir meydana çıxmış olursan. Sol tərəfində XVIII əsrin memarlıq abidəsi olan Bakı xanlarının iqamətgahının qalıqları görünür. Məlumdur ki, dağıdıcı zəlzələdən sonra Şirvan hökmdarı Axsitan paytaxtı İçərişəhərə köçürdü. Şəhər böyüyüb genişləndi. Burda möhtəşəm bir saray - Bakının ecazkar tarixi abidələrindən olan - Şirvanşahlar sarayı tikildi. Bu saray İçərişəhərə xüsusi bir yaraşıq və əzəmət verir.

## “BAKININ TƏMƏLİ MƏHZ İÇƏRİŞƏHƏRDƏ QOYULUBDUR”

Tariximizin daha bir incisi, Bakının simvolu olan Qız qalası da İçərişəhərdədir. Əslində, İçərişəhərin tarixi daha qədimlərə, hətta eramızdan əvvələ gedib çıxır.

Bakının ən dəyərli incisi, həm də tarixi-memarlıq qoruğu olan İçərişəhər XIX əsrin sonları-XX əsrin əvvəlləri Bakıda neft bumunun yaşanmasından sonra genişlənir, insanlar İçərişəhər divarlarından kənarda da sıx məskunlaşmağa başlayır. Məhz ”İçərişəhər” anlayışı da bayır şəhərin formalaşmasından sonra yaranır. ”İçərişəhərin hər bir hissəsi, hər bir guşəsi əhəmiyyətlidir və eyni zamanda, İçərişəhər, sadəcə olaraq, açıq səma altında muzey deyil. İçərişəhərdə insanlar yaşayır, əsrlər boyu yaşayıb. ”Hamımız yaxşı bilirik ki, Bakının təməli məhz İçərişəhərdə qoyulubdur və qədim dövrlərdə Qala divarlarının kənarında heç bir tikili yox idi” - deyə Cənab Prezident bildirib: ”Bu gün də İçərişəhərdə insanlar yaşayır və onların rahatlığı üçün əlbəttə ki, böyük işlər görülür və görüləcəkdir. İçərişəhər əbədi yaşayacaq və yaşamalıdır. Biz də, bizdən sonra gələn nəsillər də haqlı olaraq İçərişəhərlə fəxr edəcəklər”.

## İÇƏRİŞƏHƏR YENİ MƏRHƏLƏDƏ

Qeyd etmək yerinə düşər ki, 17 fevral 2003-cü ildə Prezident Heydər Əliyev ”Bakı şəhərində İçərişəhər Tarix-Memarlıq Qoruğunun mühafizəsi və bərpası ilə bağlı bəzi tədbirlər haqqında” Sərəncam imzalayıb. Sərəncamdan sonra burada tikinti işləri dayandırıldı və şəhərin tarixi simasının qorunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilməyə başlandı. İçərişəhərin qorunması istiqamətində 10 fevral 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev ”Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında ”İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin yaradılması haqqında” Sərəncam imzaladı. Dövlət başçısının 16 may 2007-ci il Sərəncamı ilə ”İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Əsasnaməsi təsdiq edildi. İdarənin yaradılmasının əsas məqsədi İçərişəhər ərazisindəki abidələrin və bütövlükdə memarlıq-şəhərsalma kompleksinin lazımi səviyyədə qorunub saxlanmasının və gələcək nəsillərə çatdırılması üçün özündə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının funksiya və səlahiyyətlərini birləşdirən unikal idarəetmə sisteminin təşkil olunması idi.

17 dekabr 2009-cu ildə ”İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğunun inkişaf tədbirləri haqqında” Prezidentin Sərəncamına əsasən, İçəri Şəhərin ərazisində uçmuş və uçmaq təhlükəsi olan, tarixi-memarlıq əhəmiyyətinə malik olmayan tikililərin yerində, ənənəvi küçə şəbəkələri olduğu kimi saxlanılmaqla turizm infrastrukturu obyektlərinin qurulması, yaşayış binalarının təmiri və mühəndis kommunikasiyalarının dəyişdirilməsi, ərazidə abadlaşdırma işlərinin aparılması üçün vəsait ayrılmışdır.

İçəri Şəhər Tarix-Memarlıq Qoruğunun mühafizəsi, bərpası və orada arxeoloji işlərin aparılması məsələləri də müvafiq normativ hüquqi aktların və Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin tələblərinə uyğun şəkildə həll edilir. Mövcud qanunvericiliyə görə, Qoruğun ərazisində yerləşən elmi, tarixi və ya mədəni əhəmiyyətli bütün abidələr dövlət tərəfindən qorunur, onların dağıdılması, köçürülməsi və dəyişdirilməsi qadağan olunur.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Messi və komanda yoldaşları Bakıda azarkeşlərlə görüşüblər





***Futbol əfsanəsi Lionel Messi və dünya ulduzları Luis Suares, Serxio Buskets və Xordi Alba Bakı Kristal Zalında fanatlarına unudulmaz anlar yaşadıb. Pərəstişkarların dünya futbolunun ulduzları ilə görüşündən əvvəl səhnədə ”Natiq” ritm qrupunun çıxışı olub. Daha sonra dünyaşöhrətli bəstəkar və müğənni Villi Uilyam konsert proqramını təqdim edib.***

Dünya çempionu, səkkiz dəfə ”Qızıl top” mükafatına layiq görülən Lionel Messinin karyerasını əks etdirən filmin nümayişindən sonra isə ulduz futbolçu komanda yoldaşları - Luis Suares, Serxio Buskets və Xordi Alba ilə səhnəyə çıxıb.





Ölkəmizin uşaq futbol komandalarının təmsilçilərinə bir çox gəncin arzuladığı imkan da yaradılıb. Belə ki, gənc futbolçularımız dünyanın ən yaxşısı oyunçusu Lionel Messi və komanda yoldaşlarına top ötürərək özlərini peşəkarlarla bir oyunun iştirakçıları kimi hiss ediblər. Daha sonra futbol ulduzları gənc həmkarları və sağlamlıq imkanları məhdud uşaqlarla xatirə şəkli çəkdiriblər.

Ulduz futbolçuların imzalı topları auditoriyaya dağıtması anları isə coşqu ilə qarşılanıb. Futbol həvəskarları üçün bu idman bayramı məşhur ”Morandi” qrupunun çıxışı ilə davam edib. Minlərlə fanatın qatıldığı tədbirə Bakının uşaq evlərinin sakinləri, sağlamlıq imkanları məhdud uşaqlar və şəhid övladları da dəvət olunub. Tədbirə bilet satışından əldə olunan vəsait isə xeyriyyə məqsədinə yönəldiləcək.

# Qəlblərdə yaşayan əbədi lider!

Liderlər qlobal arenada xidmətlərinin miqyasına görə fərqli səviyyələrdə tanınırlar. Elə şəxsiyyətlər var ki, onlar yalnız öz Vətənində, doğma yurdunda tanınır, qəbul və təqdir olunur. Lakin elə siyasi xadimlər, dahilər var ki, onları bütün dünya tanıyır, eyni zamanda onlar zaman və məkan anlayışına sığmırlar. Ulu Öndər, dünyaşöhrətli siyasətçi, müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyev məhz belə dahi şəxsiyyətlərdəndir. Heydər Əliyev bütün fəaliyyəti dönəmində öz xalqının xoşbəxt gələcəyi, milli maraqları uğrunda mübarizə aparmış, təkrarsız siyasət yürüdərək ölkəmizin müstəqilliyini qoruyaraq dağılmaqda olan bir ölkənin qurtuluşçu lideri kimi fenomen olmağı bacardı. Ulu Öndər Azərbaycanı inkişaf, tərəqqi yoluna çıxararaq müstəqil dövlətimizin gələcək qələbələrinin fundamental əsaslarını yaratmaqla milliliklə dövlətçiliyin vəhdətini təmin edərək onun sarsılmaz təməlini inşa etdi. SİA xəbər verir ki, bu fikirlər Naxçıvan MR Ali Məclisinin deputatı Xumar Məmmədovanın açıqlamasında yer alıb.Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin xalqın maraqlarını özündə əks etdirən uzaqgörən siyasəti ölkəmizin həm daxili, həm də xarici siyasətinin dəqiq konturlarını müəyyənləşdirdi. Azərbaycanda qanunsuz silahlı birləşmələrin fəaliyyətinin qarşısı alındı, müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. 1994-cü ilin mayında Heydər Əliyevin siyasi müdrikliyi sayəsində Qarabağda döyüş bölgəsində axan qanı dayandırmağa imkan verən atəşkəs rejiminin tətbiqi haqqında saziş imzalandı. Ölkənin hərtərəfli inkişafının konseptual əsaslarını yaradan Heydər Əliyevin yürütdüyü siyasət ilə Azərbaycan dövlətçiliyi möhkəmləndirildi, təhlükəsizliyi təmin edildi, güclü nizami ordu quruldu, ölkə dünya birliyinə inteqrasiya olunmağa başladı və iqtisadi tərəqqi dövrünə qədəm qoydu.Bildirib ki, Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətlərinə dövlətin ictimai-siyasi həyatının bütün sahələrində əsaslı islahatların aparılması daxildir. Ulu Öndərin uzaqgörənliyi və zəngin siyasi təcrübəsi sayəsində Azərbaycan beynəlxalq aləmdə öz layiqli yerini tutmağı bacardı.Ümummilli Lider xalqın gələcəyə inamını bərpa etdi, ölkənin sürətli inkişafı və dünya miqyasında yüksək nüfuzu üçün möhkəm zəmin yaratdı. Böyük dövlət xadimi Heydər Əliyevin titanik fəaliyyəti nəticəsində dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə, Şərqlə Qərb arasında etibarlı körpüyə çevrildi.Ən əsası, Ümummilli Liderin müdrik strategiyası müqəddəs Vətən müharibəsində Böyük Qələbənin, doğma torpaqların azad edilməsinin və Azərbaycanın ərazi bütövlüyünün bərpasının əsasını qoydu.”Təqvimin 12 dekabr Ümummilli Lider Heydər Əliyevin anım günüdür. Məhz təqvimin bu günündə dünya şöhrətli siyasətçi Heydər Əliyevin vəfatı bütün Azərbaycan xalqını matəmə qərq etdi. Azərbaycan xalqı öz qurucusunu, ölkəni xaosdan, fəlakətlərdən xilas edən xilaskarını itirdi. Xalq hər il bu günü ümumxalq hüzn günü kimi qeyd edir.Çünki bu gün xalqımızın Heydər Əliyev kimi lideri olmasaydı azad, qüdrətli bir ölkədə deyil, vətəndaş müharibəsi fonunda dağıdılmış bir məmləkətdə yaşayırdıq və kim bilir, taleyimiz necə olacaqdı! İftixarla qeyd etmək olar ki, Ulu Öndərin qurduğu müasir Azərbaycan dünya dövlətləri içərisində öz layiqli yerini tutaraq taleyinin ən qüdrətli dövrünü yaşayır və bütün uğurlarımız Heydər Əliyevin adı ilə bağlıdır.Heydər Əliyev olmasaydı, müstəqilliyimizə qəsd olunacaqdı. Xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə gələn Heydər Əliyev xoşbəxt gələcəyimiz uğrunda yorulmaz mübarizə apardı, ölkəni siyasi böhrandan, xarici təhlükələrdən xilas etməyi bacardı. Azərbaycanı parçalanma təhlükəsindən, vətəndaş müharibəsindən qoruyaraq lider kimi ümumxalq sevgisi qazandı.Bu gün müstəqil Azərbaycan Ulu Öndərin şah əsəridir. Təməli dahi şəxsiyyət Heydər Əliyev tərəfindən qoyulan hüquqi dövlət quruculuğunun Azərbaycan modeli bu gün Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən ən yüksək səviyyədə davam etdirilməkdədir. Məhz bu strategiya ilə biz qalib ölkənin qürurlu vətəndaşlarıyıq və bütün qələbələrimizə, uğurlarımıza görə biz Heydər Əliyevə borcluyuq!Atılan bütün addımlar, müxtəlif sahələrdə əldə olunan nailiyyətlər Ulu Öndərin gələcək nəsillərə əmanət qoyub getdiyi ideyaların parlaq təntənəsidir. Əbədiləşən bir ömür yolu keçən Ümummilli Lider Heydər Əliyev bütün həyatını Azərbaycanın inkişafı və tərəqqisinə həsr etməklə milləti, dövləti üçün misilsiz xidmətlər göstərmişdir. Məhz bu xidmətlərinə görə Müstəqil Azərbaycan dövlətinin memarı, Ulu Öndər Heydər Əliyev daim Azərbaycan xalqının qəlbində yaşayacaq, hər zaman xalqımızın sonsuz məhəbbətinin qürur mənbəyi olacaqdır!”, - deyə Xumar Məmmədova qeyd edib.



# Andrey Bıstritski: ”Tramp ABŞ-ın Cənubi Qafqazda ehtiraslarının intensivliyini azalda bilər”

**“Valday” Beynəlxalq Diskussiya Klubunun İnkişaf və Dəstək Fondunun İdarə Heyətinin sədri Andrey Bıstritski ”Moskva-Baku” portalına müsahibəsində Cənubi Qafqazdakı mövcud vəziyyət və ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın regionla bağlı siyasəti haqda fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.**



***-Andrey Georgiyeviç, Donald Trampın dövründə ABŞ-ın siyasəti nöqteyi-nəzərindən Cənubi Qafqazı nə gözləyir?***

-Donald Tramp bir tərəfdən rasional siyasətçidir, digər tərəfdən o, amerikalıların uğuru və xoşbəxtliyi ideyasına əsaslanan müəyyən prioritetlər sistemini rəhbər tutur. Amerika xalqı, Amerika iqtisadiyyatının uğuru, Amerika biznesinin uğuru. Bu, həm də Amerika siyasətinə xas olan demokratiya ideyasını təbliğ etmək üçün Birləşmiş Ştatların ”böyük missiyasının” bir hissəsidir. Bu fikrə əsaslanaraq ABŞ-ın elitaları insanları ”pis” və ”yaxşı”ya bölürlər. Fikrimcə, Trampın ABŞ-da hakimiyyətə gəlməsi ilə ABŞ-ın Cənubi Qafqaza diqqəti qalacaq, lakin o, şübhəsiz ki, regionun ayrı-ayrı ölkələrinə qarşı daha neytral və daha az qərəzli olacaq.

Eyni zamanda, mən bu vəziyyətdə bir ”nöqsan”ı da göstərərdim ki, Donald Tramp əsəbi bir insandır və məsələləri tez və ona göründüyü kimi, süpürgəçi hərəkətlərin köməyi ilə düzgün həll etməyə meyllidir. Tamamilə mümkündür ki, ilkin mərhələdə Trampın Transqafqaz siyasəti ətalətlə davam edəcək. Bayden administrasiyası dövründə geosiyasi proseslər və Rusiya ilə Qərb arasında böyük münaqişə səbəbindən ABŞ-ın diqqəti həm də Rusiya ilə qonşu olan və Rusiya Federasiyasına qarşı istifadə edilə bilən region kimi Transqafqazda idi.

Düşünürəm ki, Tramp Ermənistana qarşı Baydendən daha təmkinli olacaq. Baxmayaraq ki, indi çox tənbəl olan hər kəs ona meyl edir. Tramp parlaq siyasi karyera qurmuş ağıllı adamdır. Heç kimi itələmir, hamı ilə danışır. Ona görə də, böyük ehtimalla, o, Cənubi Qafqazdakı problemlərə daha balanslı yanaşacaq. Və daha uzaqdan.

Eyni zamanda, hazırkı Avropa elitası militokratiyaya sadiqdir, Avropa Komissiyasının rəhbəri Fon der Lyaen və bir sıra digər Avropa liderləri çox ideolojidir; Və bu ideologiyalaşmada özlərini çıxılmaz vəziyyətə saldılar. Onlar hamı üçün bütün bu ”demokratik” dəyərləri ortaya atdılar. Və özləri də bunun nə olduğunu bilmirlər.

Ermənistana gəlincə, Paşinyan qulaq asmağa, manevr etməyə məcbur olan adam tipidir. İndi o, avropalılara və ABŞ-a tabe olduğunu açıq şəkildə nümayiş etdirir, buna heç bir şübhə yoxdur. Amma eyni zamanda o, ekssentrik siyasətçidir. Ayaqları altından yer qaçır. Və onun birbaşa Qərbin tam nəzarətində olduğunu söyləmək olmaz. Mən şişirtməzdim.

Paşinyan Qərbə tabe olan siyasətçi kimi eyni zamanda Qərb ölkələrinə rəhbərlik edənləri manipulyasiya etmək üçün çeviklik və hiyləgərliyə malikdir. Müqayisə üçün: Paşinyanın KTMT-dəki həmkarlarına iddiaları- o, onlarla manipulyasiya etmək istəyirdi, amma alınmır. Amma qərbliləri manipulyasiya etmək olar. Onlara guya Ermənistana etdikləri ilə bağlı hər cür dəhşətləri danışır. Bu, ideoloji cəhətdən zəngin deyil, amma enerjili təbliğatdır. Ona görə də Paşinyanı xalis kukla hesab etmək olmaz. Bu qəribəlikləri olan bir kukladır.

***-Tramp Ukraynada müsbət addımlar atarsa, başqa bölgələrdə və regionlarda "zəncirvari reaksiya" gözləmək lazımdırmı?***

-Şübhəsiz. Hələlik mən buna ümid edirəm. İndi Trampın birinci prezidentliyində olduğu kimi, Yaxın Şərq mövzusu onu Cənubi Qafqazdan daha çox maraqlandıra bilər. O, demokratlar kimi İsraili tərk etməyəcək. Qalan rayonlar, hesab edirəm ki, heç vecinə də olmayacaq. Məsələn, indi Suriyada baş verənləri Amerika layihəsi adlandırmaq müəyyən dərəcədə şişirtmə olardı. Tramp hər kəsi öz vəziyyətinə buraxa bilər. Onun tezislərindən biri: maliyyə nəyə lazımdır, ABŞ-a faydası yoxdursa, əlavə pulları boş yerə xərcləmək nəyə lazımdır?!

***- Tramp hakimiyyətə gələndən sonra Ermənistanın belə bir sualı olmayacaq: KTMT-dən çıxmaq lazımdırmı?***

-Paşinyan, hətta Trampın dövründə də eyni vaxtda iki kresloda oturub bütün məsələləri ifrat dərəcədə aşmaqda davam edəcək, hamını manipulyasiya etməyə və hər zaman özünə və Ermənistana dəyər verməyə, dünyanın diqqətini kasıb Ermənistana yönəltməyə, özünü düzəltməyə çalışacaq. Və nümayiş etdirəcək: ”Bax, bu insanlar məni sizdən çox sevirlər”, ”və indi sizə bunu göstərəcəyəm.” Bu, çox sərfəli mövqedir.

***-Azərbaycan Prezidenti Tramp haqqında kifayət qədər müsbət danışdı... Həm də ümumilikdə ABŞ-ın Azərbaycana qarşı siyasəti və xüsusən Bayden administrasiyasının siyasəti haqqında isə çox sərt...***

-Konkret bir ölkənin lideri diplomatiya qanunlarına görə, başqa dövlətin lideri haqqında mümkün qədər müsbət danışır. Və bir lider yenicə hakimiyyətə gələn liderə müsbət səciyyə verəndə bu, iki ölkə münasibətlərində bir növ qarşılıqlı anlaşmaya çevrilir. Biz başa düşürük ki, Azərbaycanın ABŞ-ı tənqid etməsi üçün əsaslar var. Və amerikalıların reaksiyasına görə, onlar da başa düşürlər ki, bu səbəblər mövcuddur.

Ancaq ümumilikdə vəziyyətdə dəhşətli bir şey yoxdur. Bunlar siyasət üçün adi şeylərdir. Bu vəziyyətdə, sadəcə nisbət və üslub hissi olmalıdır və sonra müxtəlif növ razılaşmalara nail olmaq mümkün olacaq.

***Tərcümə - Elçin Bayramlı***

# "Müdrik siyasət, tarixi uzaqgörənlik, Böyük Qayıdış: Qarabağda və Şərqi Zəngəzurda quruculuq-bərpa prosesi"





***Ulu Öndər Heydər Əliyevin anım günü ilə əlaqədar dekabrın 11-də Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurası, YAP Xətai rayon təşkilatı və Xətai Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Müdrik siyasət, tarixi uzaqgörənlik, Böyük Qayıdış: Qarabağda və Şərqi Zəngəzurda quruculuq-bərpa prosesi" mövzusunda tədbir keçirilib.***




Əvvəlcə Ulu Öndər Heydər Əliyevin Xətai rayonu ərazisində yerləşən abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb. YAP Xətai rayon təşkilatında keçirilən tədbirdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Xətai rayon təşkilatının sədri Ramil Mirzəyev Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında tarixi xidmətlərindən bəhs edib. O qeyd edib ki, müasir Azərbaycanın inkişaf strategiyasının müəllifi Ümummilli Lider Heydər Əliyevdir: "Ulu Öndər Heydər Əliyevin siyasi varisi, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan qüdrətli və qalib ölkəyə çevrilib. Uğurlarımızın zirvəsində isə Qarabağ Zəfəri dayanır. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə nəhəng quruculuq işləri həyata keçirilməkdədir".

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, Ulu Öndər Heydər Əliyevin istər SSRİ dövründə, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi dönəm dövlətçilik tariximizdə mühüm yer tutur: "Heydər Əliyevin hakimiyyətə birinci gəlişi xalqın həyatında dönüş nöqtəsi, çiçəklənmə, milli oyanış dövrü oldu. 1993-cü ildə Ulu Öndər hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirdi, ölkəmizi məhv olmaq təhlükəsindən qurtardı. Ümummilli Lider Heydər Əliyevin müasir müstəqil Azərbaycana rəhbərliyinin əsas nəticəsi ondan ibarətdir ki, dağılmaq təhlükəsi qarşısında olan ölkəmiz dinamik inkişaf edən bir ölkəyə çevrildi".

YAP Veteranlar Şurasının sədri diqqətə çatdırıb ki, hazırda Azərbaycan inkişafının ən möhtəşəm dövrünü yaşayır. A.Rəhimzadə qeyd edib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz qazandığı Qarabağ Zəfəri ilə güclü və qüdrətli dövlət olduğunu bütün dünyaya nümayiş etdirdi: "Müharibənin başa çatmasından sonra erməni işğalından azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin aparılması qarşıda dayanan başlıca vəzifələrdəndir. Bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir. Bölgənin dirçəldilməsi ümumilikdə ölkəmizin inkişafına və insanların rifah halının daha da yaxşılaşdırılmasına öz töhfəsini verəcək".

Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quliyev çıxışında Azərbaycanın inkişafında Ulu Öndər Heydər Əliyevin misilsiz rolundan danışıb. O qeyd edib ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qüdrətli dövlətə çevrilib. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı quruculuq işləri də bu reallığı təsdiqləyir.

Çıxış edən YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə bildirib ki, müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyevin adı tariximizə əbədi həkk olunub. Onun sözlərinə görə, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərimizdə böyük quruculuq işləri sistemli şəkildə həyata keçirilir. Bərpa işlərində milli memarlıq üslubu ilə yanaşı, yeni yanaşmalar tətbiq olunur. YAP Veteranlar Şurasının üzvü hər bir ölkənin uğurlu gələcəyinin gənclərdən asılı olduğunu deyib: "Ona görə də Azərbaycan gəncliyi müstəqil dövlətimizi qorumaq, daha da inkişaf etdirmək üçün yüksək biliklərə yiyələnməli, layiqli vətəndaş kimi formalaşmalı və milli-mənəvi dəyərlərimizi qorumalıdır".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin Ulu Öndər Heydər Əliyevin Azərbaycanın bu günü və gələcəyi ilə bağlı gördüyü işlərdən bəhs edərək vurğulayıb ki, onun idarəçilik təcrübəsi, siyasi iradəsi, liderlik keyfiyyətləri hər bir çətinliyin öhdəsindən uğurla gəlməsini şərtləndirib: "Bu gün həmin siyasi iradəni Prezident İlham Əliyev nümayiş etdirir. 44 günlük İkinci Qarabağ müharibəsində 30 illik işğala son qoymaq Prezident İlham Əliyevin qətiyyətinin, Azərbaycan Ordusunun gücünün və qüdrətinin nəticəsidir".

Çıxış edən Milli Məclisin deputatı Vüqar Rəhimzadə bildirib ki, Ulu Öndər Heydər Əliyev hakimiyyətinin bütün dövrlərində Azərbaycanın inkişafı üçün çalışıb: "Bugünkü müasir, müstəqil Azərbaycan Heydər Əliyevin adı ilə bağlıdır".



O qeyd edib ki, bu gün Azərbaycan dövləti Ulu Öndərin ideyaları əsasında inamla inkişaf edir. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işlərinin böyük sürətlə davam etdiyini deyən deputat qeyd edib ki, qarşıdakı dövrdə Böyük Qayıdış Proqramının tam icra olunması, ordumuzun daha da gücləndirilməsi əsas vəzifələr sırasındadır. "Prezident İlham Əliyev bu istiqamətdə uğurlu siyasət həyata keçirir. Bütövlükdə, qazanılan nailiyyətlər Heydər Əliyev siyasətinin təntənəsidir. Bizim vəzifəmiz görülən işlərə, inkişaf siyasətinə dəstək olmaqdır" ,- deyə V.Rəhimzadə vurğulayıb.



Milli Məclisin deputatı Pərvanə Vəliyeva çıxışında Ulu Öndər Heydər Əliyevin gənclərə qayğısından bəhs edib. Onun sözlərinə görə, bu qayğının nəticəsində Azərbaycan gəncliyi yüksək bilik və bacarıqlara yiyələnib. Prezident İlham Əliyevin siyasətində də bu amil əsas yer tutur. "Yüksək vətənpərvərlik ruhuna sahib olan gənclərimiz torpaqlarımızın erməni işğalından azad edilməsində qəhrəmanlıq dastanı yazdılar. Gənclərimiz bu gün Qarabağdakı quruculuq işlərində də fəal iştirak edirlər" ,-deyə deputat qeyd edib.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin İşğaldan azad olunmuş ərazilərdə layihələrin idarə edilməsi şöbəsinin müdiri Ramil Cahangirov işğaldan azad olunmuş ərazilərdə görülən işlər haqqında məlumat verib. O qeyd edib ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə Böyük Qayıdış həm məzmununa, həm də miqyasına görə dünya praktikasında alternativi olmayan bir yenidənqurma təcrübəsidir.

R.Hüseynovun sözlərinə görə, ötən dövr ərzində işğaldan azad olunmuş ərazilərin ümumi planı ilə yanaşı, 8 şəhərin baş planının hazırlanması üzrə işlər tamamlanıb, bundan əlavə 90-a yaxın kənd və qəsəbədə ərazi planlaşdırılması işləri icra edilib: "Bugünədək 30-dan çox yaşayış məntəqəsində tikinti işlərinə start verilib. Şəhər, kənd və qəsəbələrdə müfəssəl planlaşdırma normalarına və müasir şəhərsalma prinsiplərinə uyğun olaraq yeni yaşayış infrastrukturu, sosial təyinatlı obyektlər, ictimai məkanlar yaradılır. Yaşıllıqların qorunması və artırılması, yeni açıq ictimai məkanların təqdim edilməsi nəticəsində Qarabağ və Şərqi Zəngəzurun bütün şəhərləri "yaşıl şəhər" prinsiplərinə uyğun yenidən qurulur. Eyni zamanda, bugünədək işğaldan azad edilmiş ərazilərdə 168 000 hektara qədər sahə minalardan təmizlənib. Təmizlənmiş ərazilərin 21 500 hektarı yaşayış məntəqələrinin payına düşür". O qeyd edib ki, hazırda Qarabağ iqtisadi rayonu üzrə daha 4 şəhərin baş planı işlənilir: "Təkcə qarşıdakı 2 ildə 50-yə yaxın kənd və qəsəbənin planlaşdırılması nəzərdə tutulur".

YAP Veteranlar Şurasının üzvü Adilə Abasova isə çıxışında Ümummilli Lider Heydər Əliyevin ömür yolundan, həyat və fəaliyyətinin mühüm məqamlarından danışıb. O bildirib ki, Heydər Əliyev tarix yazan dahi şəxsiyyətdir: "Ulu Öndər bütün varlığı ilə xalqını, Vətənini sevirdi, doğma Azərbaycanın yüksəlməsi üçün var qüvvəsi ilə çalışırdı. Heydər Əliyevin həyat və fəaliyyəti bir tarixdir".

Çıxış edən Vətən Müharibə Qəhrəmanı Zaur Hüseynov Ulu Öndər Heydər Əliyevin gənc nəslin vətənpərvərlik ruhunda yetişməsi üçün xidmətlərindən bəhs edib. O deyib ki, hələ sovetlər dönəmində C.Naxçıvanski adına hərbi məktəbin yaradılması bu baxımdan çox mühüm əhəmiyyətə malikdir. Bildirib ki, Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirməsi nəticəsində güclü Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi. Tədbirə Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə yekun vurulub.

# “Heydər Əliyevin əsas prinsipi sosial ədalətin və sosial rifahın olması idi”

**“Azərbaycan xalqının Ümummilli Lideri Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında xidmətləri misilsizdir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Musa Quliyev deyib.**



Deputat sözlərinə belə davam edib: ”Ulu Öndər Heydər Əliyev yeganə milli lideridir ki, iki bir-birinə zidd dövrdə Azərbaycana rəhbərlik edib və hər ikisində Azərbaycan xalqına xoşbəxtlik gətirib. Onun fəaliyyəti Azərbaycanın qüdrətli bir ölkəyə çevrilməsinə, xalqımızın da sosial rifahının yüksəlməsinə xidmət etmişdir.Hələ 1969-cu ildə SSRİ dönəmində Azərbaycana rəhbər seçilən, Azərbaycan Mərkəzi Komitəsinin birinci katibi seçilən Heydər Əliyev ilk gündən qarşısına belə bir məqsəd qoydu ki, daha bu cür yaşamaq və işləmək olmaz, hər şeyi dəyişmək lazımdır. Çünki o zaman Azərbaycan 15 SSRİ respublikaları içərisində öz sosial-iqtisadi inkişaf səviyyəsinin göstəricilərinə görə aşağıdan ikinci yer tuturdu. Yəni, 13 respublika bizdən qabaqda idi. Məhz Heydər Əliyev o zaman belə bir şüar irəli sürdü: ”Qoy ədalət zəfər çalsın!”. Bu həm sosial, həm hüquqi ədalət demək idi və hər kəsin əməyinin doğru qiymətləndirilməsi üçün irəli sürülən bir prinsip idi.Qısa müddət ərzində Ulu Öndərin təşkilatçılığı, siyasi bacarığı və intellekti, səfərbəredici fəaliyyəti nəticəsində Azərbaycan o dövrkü SSRI-NİN geridə qalmış aqrar xammal bazası olan bir ölkədən böyük sənayeyə, elmə, təhsilə, mədəniyyətə və aqrosənaye komplekslərinə malik bir respublikaya çevrildi. Məhz Ulu Öndərin böyük səyləri nəticəsində qısa müddət ərzində Azərbaycanda çoxlu zavodlar tikildi, fabriklər açıldı, sənaye inkişaf etdi, eyni zamanda kənd təsərrüfatı xüsusilə üzümçülük və pambıqçılıq inkişaf etməklə kənd əhalisinin sosial rifahı yüksəldi. Məhz həmin dövrdə mindən çox orta məktəb tikildi, yeni universitetlər açıldı, Bakı şəhəri böyüdü, mikrorayonlar açıldı. Respublikada milyonlarla kvadrat metr insanlar üçün mənzillər tikildi verildi və insanların sosial rifahı yüksəldi.






Heç də təsadüfi deyildir ki, SSRİ dağılan zaman SSRI-nin müsbət iqtisadi saldoya malik iki respublikası vardı: Rusiya bir də Azərbaycan. Qalan respublikaların demək olar ki hamısı SSRİ büdcəsindən dotasiya yaşayırdı. Müstəqillik dövrümüzdə Heydər Əliyevin təəssüf ki vaxtında qurduğu çiçəklənən respublikadan heç nə qalmamışdı. Ağır bir miras qalmışdı, ölkə dağılmışdı, iqtisadi əlaqələr pozulmuşdu, ölkə humanitar fəlakət səviyyəsində idi, hər yerdə qaçqınlıq, məcburi köçkünlük, dağıntılar, qarşıdurmalar, vətəndaş müharibəsi həddinə gəlib çıxmışdı. İqtisadi münasibətlər tam tənəzzül vəziyyətində idi. Həmin dövrdə inflyasiya həddən artıq, 250 faizə çatmışdı. İş yerləri yox idi, insanların müalicə alması üçün, təhsil alması üçün demək olar ki şərait yox idi, işıq yox, qaz yox, yollar dağılmış bərbad vəziyyətdə və belə bir şəraitdə həm də dövlət də tamamilə dağılmışdı, dövlət hakimiyyəti qurmaq lazım idi.Qısa müddət ərzində bütün qüvvələri Ümummilli lider 1993-cü ildən 1996-cı ilə qədər səfərbər edə bildi. 1996-cı ildə Azərbaycanda iqtisadi tənəzzül dayandı və iqtisadi sabitləşmə başladı. 1998-ci ildən isə Azərbaycanın iqtisadi inkişafının yeni dövrü məhz Heydər Əliyev dövrü, daha sonra isə İlham Əliyev dövrü başladı. Həmin dövrdə Azərbaycanda dərin islahatlar baş tutdu. Torpaq, əmlak və sosial islahatlar aparıldı. Sosial islahatlarda Heydər Əliyevin əsas prinsipi sosial ədalət və sosial rifah olması idi. Heydər Əliyev həmişə söylərdi ki, ”Dövlət xalq üçündür, xalq dövlət üçün deyil”. Yəni dövlətin bütün iqtisadi resursları və maddi sərvətləri xalqın arasında ədalətli bölünməlidir. Həmin dövrdə qəbul olunan bir sıra qanunlar bizim bugünkü müstəqil Azərbaycanın sosial siyasətini müəyyən edən istiqamətlər oldu.Pensiyaların və əməkhaqlarının artırılması, əlillərin sosial müdafiəsinin gücləndirilməsi, qaçqın və məcburi köçkünlərin sosial rifahının qorunub saxlanılması istiqamətində ümummilli liderin olduqca böyük işləri vardı.

Həmin siyasət cənab İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir və indi Azərbaycan dünyanın sosial rifah dövlətlərindən biridir. Bizim hər il pensiya, əməkhaqqı və müavinətlərimiz artır. 2019-cü ildən bəri cənab Prezident tərəfindən 4 dərin sosial islahatlar zərfi qəbul olunub və hər il bu islahatlar zərfini həyata keçirmək üçün dövlət büdcəsindən əlavə 7 milyard vəsait ayrılır. Gələn ilin dövlət büdcəsində təxminən 17 milyard manat məhz sosial yönümlü xərclərə vəsait ayrılması nəzərdə tutulub. Bu ümumi büdcəmizin 41 faizinu təşkil edir. Bütün bunlar hamısı Azərbaycan xalqı üçündür. Bu xidmətlərinə görə Azərbaycan xalqı Heydər Əliyevi sevir, onun xatirəsini əziz tutur. Heydər Əliyev özü də dediyi kimi, ”Nə qədər Azərbaycan xalqı var, Azərbaycan var, Heydər Əliyev də var olacaqdır”.

***Ayşən Vəli***

# “Heydər Əliyevin arzusu Türk dövlətləri arasında birlik yaratmaq idi” - HULUSİ KILIÇ

”Can Azərbaycanımızın Ümummilli Lider Heydər Əliyevi vəfatının 21-ci ildönümdə rəhmət və sevgi ilə yad edirəm. Ümummilli Lider müasir Azərbaycan dövlətinin qurucusudur. Liderlər dünyasını dəyişsələr belə, onların fikirləri sonsuza qədər yaşayacaq. Bu fikirlərə cənab İlham Əliyev yeni fikirlər qataraq uğurla yaşadır. Türk dünyası daxil olmaqla Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyadakı rolunu gücləndirdi. Dövlətçiliyi ortaya qoydu”. Bu sözləri SİA-ya açıqlamasında Türkiyənin ölkəmizdəki sabiq səfiri, ”İMZA” Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyə təmsilçisi Hulusi Kılıç deyib.



Onun sözlərinə görə, Ümummilli Lider Sovetlər birliyi vaxtında türk xalqlarının birliyini möhkəmləndirmək və ortaq dəyərlərimizi qorumaq üçün böyük əmək sərf edib: ””Ulu Öndər Sovetlər birliyi tərkibində yaşayan eyni etnik mənsubiyyətə, köklərə sahib olan türk xalqları ilə əməkdaşlığa həmişə böyük diqqət göstərmişdir. Bu çərçivədə qonşu türk dövlətləri Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Türkmənistan arasında ədəbi və mədəni əlaqələri inkişaf etdirmək üçün konsertlər, tədbirlər keçirilməsini göstəriş vermişdir. Heydər Əliyev 1997-ci ildə Moskvanı tərk edərək, Naxçıvana getdi. Naxçıvanda olduğu müddətdə Süleyman Dəmirəl ilə yaxın münasibətlər qurmuşdu və ”Ümüd” körpüsünün açılışını həyata keçirmişdir. Heydər Əliyev 1994-cü ildə Türkiyəyə ilk dəfə gəldiyində, Türkiyə parlamentində möhtəşəm çıxış etmişdi. O, ”biz bir millət, iki dövlətik” cümləsi ilə Türkiyə və Azərbaycan vətəndaşları üçün bir şüar yaradıb”.

Sabiq səfir qeyd edib ki, Ulu Öndərin arzusu Türk dövlətləri arasında birlik yaratmaq idi: ”Onun bu arzusu sonrakı illərdə reallaşdırılmışdır. Eyni zamanda Qarabağın azad edilməsi də vəsiyyətləri arasında yer alırdı. Ulu Öndəri belə tanıyıram. Millətinə bağlı, millətini sevən, Azərbaycan mənim həyatımdır deyən bir lider idi. Çox uğurlu və böyük lider idi. Azərbaycana çox önəm verirdi. Türkiyədə bir Heydər Əliyev sevgisi var. Onu biz türk dünyasının ən önəmli liderlərindən biri olaraq xatırlayırıq. Allah rəhmət eləsin. Ruhu şad olsun. Onun siyasi mirasçısı Ali Baş Komandan İlham Əliyevə Allah uzun ömür, can sağlığı versin. Allah Azərbaycanı qorusun”.

***Seyranə Quliyeva***

# Əsədin dostları

## Yaxud, Ermənistan Əsədlə bağlarını niyə qoparmır?




Suriyada Əsəd rejimi süquta uğradı, 71 illik sülalə hakimiyyətinə son qoyuldu. Maraqlıdır ki, indiyədək Suriyada bir-biri ilə didişən, savaşan güclər müxalifətin Şama yürüşünə, Əsəd hakimiyyətinə son qoymasına seyr etməklə kifayətləndilər. Sanki əvvəlcədən danışmışdılar, Bəşərin taxtından salınacağına səslərini çıxarmayacaqlarına söz vermişdilər. Bəli, "Ərəb baharı"nın uzun sürən dalğası növbəti despotu hakimiyyətindən vurub kənara atdı. Əsəd ərəb dövlətlərindən heç birinə etibar etmədi və birbaşa Moskvaya uçdu. Rusiya onun hakimiyyətini 2016-cı ildə qoruya bilmişdi, bu dəfə isə onu ölümdən qurtardı. Suriyada hakimiyyət dəyişikliyi ilə sonuclanan hadisələr dəngələri dəyişdi, bu ölkənin ərazisində "at qoşduran" ölkələri öz qınına çəkilməyə məcbur etdi.

### Kimdir Əsədin dostları?

Bu ölkələrin başında İran dayanır. Tehran Suriyada azlıqda olan şiələrin dəstəkçisi rolunda çıxış etsə də, "əbədi dostu"nu xilas etmək əvəzinə proksilərini də götürüb Tehrana döndü. Təxminən 4 minlik SEPAH üzvlərini qısa müddətdə Suriyadan evakuasiya edə bildi. Əks təqdirdə müxalifətin qəzəbinə tuş gələcəkdi. Şam şəhərini alan müxalifət lideri Abu Muhəmməd Colani məsciddə çıxışı zamanı ilk açıqlaması bu olub ki, İran və Hizbullahla heç



bir əlaqə qurulmayacaq, onların ölkə ərazisində fəaliyyətinə imkan verilməyəcək. Əslində İran bunu bildiyi üçün tələsik Suriyanı tərk etmişdi. İranın Şamdakı səfirliyinin fəaliyyət göstərməməsi də bundan qaynaqlanır.

Digər bir ölkə isə Ermənistandır. Bu günə qədər İrəvanın rəğbət bəslədiyi ölkələr sırasında Suriyadakı Əsəd rejimi ilk sıralarda idi. Türkiyə ilə yüz kilometrlərlə sərhədi olan, "Ərəb baharı"na qədər mehriban şəraitdə qonşuluq edən Suriya dövlətinin başında duran Bəşər Əsəd bir dəfə də olsun şimal qonşusuna səfər etmədiyi halda 2009-cu ildə İrəvanda ermənilərin qonağı olmuşdu. Serj Sarkisyanın dəvətinə qaça-qaça gedən Bəşər Əsəd erməniləri özünün ən yaxın dostları elan etmişdi. Hətta Serjikin məsləhətini də dinləməli olmuşdu. Sarkisyan ona "erməni soyqırımı"nı tanımağı təklif edəndə Bəşər Əsəd ona "Türkiyə ilə aramızda olan soyuqluq bitmək üzrədir. Əgər "erməni soyqırımı"nı tanısan münasibətlərimiz korlana bilər. Ermnistan prezidenti də ona "siz türkləri tanımırsınız" demişdi. III prezidentin köməkçisi 2014-cü ildə Şamda səfərdə olarkən Bəşər Əsəd ona "Sarkisyan düz deyirmiş, biz türkləri tanımamışıq" deyibmiş.

Bu gün nə baş verir? Ermənistan hələ də Suriyada baş verənləri dövlət çevrilişi kimi qələmə verir, hakimiyyətin qanuni sahibi əsəd olduğuna inad edir. Əcəba, Ermənistanın ağaları niyə susurlar, niyə Paşinyan hökumətinin dərsini vermirlər, bu günə qədər Əsəddən çəkdiklərini ermənilərə xatırlatmırlar? Bəli, erməni şıltaqlığı bu hadisələrdə də qərbliləri qıcıqlandırmır, düşmənləri ilə dostluq, qardaşlıq edən İrəvanın aşını-suyunu verməyə tələsmirlər. Əlbəttə, susqunluqda bir "əmma" var. Çünki, Ermənistan və dünya erməniləri bu regionda türkün düşməni olan bir qruplaşmaya da rəğbət bəsləyir, onları dəstəkləyir, hər cür yardımlar edirlər. Bunlar Türkiyənin bütövlüyünü təhdid edən PKK terrorçularıdır. Tərkibində ermənilərin çoxluq təşkil etdikləri bu terror təşkilatı ermənilərin əbədi düşməni Türkiyənin parçalanmasında hamıdan çox maraqlıdırlar. Dağdan arana, bələdiyyədən parlamentə qədər Türkiyə ilə hərbi və siyasi qarşıdurmada olan PKK, PYD-YPG terror təşkilatına erməni kökənli Türkiyə vətəndaşlarının bütün mənalarda dəstək verməsi heç kimə sirr deyil. Ermənilərin başqa adlar altında gizli qalaraq Türkiyə Cümhuriyyəti ilə xaincə müharibə aparmasının məqsədi qardaş ölkəni parçalamaqdır. Bu gün Suriyanın şimalında, xüsusilə Türkiyə ilə sərhəddə terrorçuların aktivləşməsi Ermənistanın və ermənilərin işinə daha çox yarayır.

Erməni politoloq Ara Poqosyan açıq şəkildə suriyalı kürdlərə rəğbət bəsləyir. O, xüsusilə yazır: "Türkiyəyönlü qüvvələr Türkiyənin birbaşa hərbi, maddi-texniki və təşkilati dəstəyi ilə təkcə Mambici deyil, həm də kürdlərin nəzarətində olan əsas zonaları ələ keçirəcək. Yeri gəlmişkən, Türkiyə məlumatlarına görə, Dəməşqin alınmasında əsas məqsəd kürd qüvvələrinin kürd bölgələrindən çıxarılması və tərksilah edilməsidir. Bu, Türkiyənin əsas məqsədidir və Əsəd kürdlərə qarşı mübarizədə Türkiyə ilə müttəfiq olmağa razılaşsaydı, yəqin ki, işlər bir az fərqli gedəcəkdi. İndi kürd qüvvələri çətin, son dərəcə çətin vəziyyətdədir...".

İranlı Vardan Voskanyan isə yazır: "Suriyada təxminən 2,5 milyon Ələvi əhalisi faktiki olaraq lidersiz qalıb və heç kim İranın onların müdafiəsini öz üzərinə götürməyəcəyinə zəmanət verə bilməz. Suriyada baş verənlər İran üçün açıq-aşkar uğursuzluq idi, lakin iranlıların bu vəziyyəti qəbul edəcəyini söyləmək olmaz. Odur ki, Suriyada milli həmrəylik yaranmasa və vətəndaş müharibəsi davam edərsə, ola bilsin ki, Livan Hizbullahından nümunə götürərək, İranın himayəsi altında Ələvi ərazilərinə nəzarət edən oxşar peyk təşkilatı yaradılsın və bu təşkilat çox işləyə bilər. Çünki iranlılar bu cür strukturların yaradılması və idarə olunmasında əhəmiyyətli imkanlara və uğurlu təcrübəyə malikdirlər".

Konkret.az saytında dərc olunan "Əsəd rejiminin Azərbaycana münasibətinə baxın" adlı məqalədə Suriyada Bəşər Əsəd rejiminin devrilməsindən sonra erməni siyasi cameəsində isterika yaşandığı və bu çevrilişin Ermənistana zərbə olacağı ilə bağlı fikirlər yer alıb. Qeyd edilir ki, Əsədlə bağlı "fikir müxtəlifliyi" səbəbindən bəzi hadisələri yada salmaq yerinə düşər:

"Birinci fotoda Bəşər Əsədlə yanaşı oturan şəxs keçmiş rejimin baş müftisi Əhməd Bədrəddin Hassundur. Diktator Bəşər Əsədin qətliamlarına haqq qazandırması ilə tanınan Hassun Qarabağda "erməni dövlətinin" qurulmasına tərəfdar olduğunu deyib. 2011-ci ildə Suriyanın dini icmaları ilə görüşündə çıxışında o bildirib: "Elə regionlar vardır ki, onların mübahisəli vəziyyətinə son qoymağın vaxtı çatıb. Məsələn, Dağlıq Qarabağ. Qarabağ üçün başqa motivasiya erməni xalqının müstəqillik üçün göstərdiyi azadlıq istəyi, regionun tarixi keçmişi və müharibədə qələbədir. Hansı mübahisədən söhbət gedə bilər? Şəxsən mən Qarabağdakı erməni xalqının müstəqillik və azadlıq uğrunda səylərini dəstəkləyirəm. Bir daha qeyd etmək lazımdır ki, Qarabağ münaqişəsinin səbəbi din deyil, erməni xalqının azadlıq istəyidir. Bununla hesablaşmamaq olmaz".

**1.** Suriyada xeyli sayda erməni silahlı Əsəd səflərində vuruşub və onun yaxın mühafizəsində olub;

**2.** Hələbdə dinc insanlara qarşı baş vermiş qətliamlar zamanı terrorçu erməni birlikləri xüsusi fəallıq göstərib. Türkman xalqının qətliamında iştirak ediblər;

**3.** Ermənistan hökumətinin Bəşər Əsədə və onu dəstəkləyən terrorçu qruplara yardım dolu təyyarə göndərdiyinin sübutları var;

**4.** Xocalı soyqırımı zamanı Suriyadan Əsədin xüsusi təyinatlı ermənilərlə birgə iştirak edib. Gürcüstandan qalxan helikopterin pilotları Suriya ərəbi və Suriya ermənisi olub.



### İkinci fotoya diqqətlə baxın:

"Mersedes" firmasının istehsalı olan "Gelandevagen" markalı maşını 1990-cı ildə Suriya Prezidenti Hafiz Əsəd Ermənistanın müdafiə naziri olan Vazgen Sərkisyana hədiyyə edib. Sərkisyan onu bir az sürüb, sonra gürcü biznesmenlə iki tanka dəyişib. Bu tanklar Qarabağda azərbaycanlılara qarşı müharibədə istifadə edilib.

1994-cü ildə Suriya prezidenti həmin maşını gürcü biznesmendən pulla geri alıb, yenidən Sərkisiyana hədiyyə edir! İndi bu "Mersedes" Ermənistanda muzeydə saxlanılır.

Xocalıda günahsız insanların qatilləri (digərlərini hələ demirəm) olan ermənilərlə əlbir olan Bəşər Əsəd və onun baş müftisinə Azərbaycan xalqı necə yanaşmalıdır?".

### Erməni mətbuatı Suriyadan nə yazır?

Armenianreport yazır: Rusiya gözümüzün qabağında zəifləyir. Suriyada üzünə gurultulu sillə vuran o, indi bizim müttəfiqimiz ola bilməz. Deməli, indi Ermənistanın gözü NATO-ya çevrilməlidir. Suriya prezidenti Bəşər Əsədin öldüyünü düşünməyə əsas var. Hazırda dünyanın aparıcı KİV-ləri tərəfindən fəal şəkildə yayılan məlumatlara görə, Bəşər Əsədi daşıyan təyyarə qəfil hündürlüyünü itirməyə başlayıb və sonra radarlardan itib. O, yəqin ki, qəzaya uğrayıb. Bu barədə monitorinq kanalları da məlumat verir. FlightRadar-ın məlumatına görə, Əsədin olduğu iddia edilən SYR9218 nömrəli İl-76T təyyarəsi Əl-Suvayri yaxınlığında qəzaya uğrayıb.

Bundan əvvəl Reuters agentliyi Bəşər Əsədin Dəməşqi naməlum istiqamətdə tərk etdiyini bildirmişdi. Nəşr bu barədə iki yüksək rütbəli suriyalı zabitə istinadən məlumat yayıb. Həmçinin bütün işçilərin Dəməşq Beynəlxalq Hava Limanını tərk etdiyi və işinin tamamilə dayandırıldığı bildirilib. Bundan əlavə, Suriyanın "Şam FM" radiostansiyasının məlumatına görə, Dəməşqdə partlayış səsləri eşidilib.

Yalnız dəqiq bilinən odur ki, Əsədin həyat yoldaşı və uşaqları ötən həftə (25 noyabr - 1 dekabr) ölkəni tərk edib. Əsədin iki kürəkəni Birləşmiş Ərəb Əmirliklərinə gedib. Artıq mətbuatda Misir və İordaniyanın rəsmi nümayəndələrinin Əsədin özünü ölkəni tərk etməyə və sürgündə müvəqqəti hökumət qurmağa çağırması barədə məlumatlar dərc olunub. Görünür, özü də belə tez və amansızcasına xəyanət olunacağına inanmırdı. Hər şeydən əvvəl Rusiya. Hansı ki, Kreml nə qədər inkar etməyə çalışsa da, gözümüzün qabağında zəifləyir. ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp haqlı olaraq iddia edib ki, Rusiya üsyançıların hücumu zamanı Suriyada Bəşər Əsəd hökumətinə kömək edə bilməyəcək, çünki Ukrayna müharibəsində artıq xeyli itki verib.

Bu barədə o, Truth Social sosial şəbəkəsindəki səhifəsində yazıb. "Ukraynada bu qədər bağlı olan və orada 600 mindən çox əsgərini itirən Rusiya, illərdir müdafiə etdiyi Suriya üzərində bu hərfi yürüşü dayandıra bilməyəcək", deyə Tramp bildirib. Və belə də oldu. Baş verənlər isə Rusiyanın əsas geosiyasi oyunçu statusuna ciddi təsir edir. Bu, Kremlin Yaxın Şərqdə təsirinin zəiflədiyini göstərir.

Rusiyanın neft nəqlinə nəzarət etdiyi nöqtə Suriya idi. İndi Mərkəzi Asiya ölkələrinin alternativ yolları olacaq. Daha dəqiq desək, Rusiya əsas qərarlardan kənarda qalacaq, xüsusən də Qazaxıstanın neft ixracına təsir etməyəcək. Qazaxıstan isə, bildiyiniz kimi, Rusiyadan yan keçməklə illik neft tədarükünü artırmağa hazırlaşır. Bu məqsədlə rəsmi Astana konkret boru xətti seçib. Bu barədə "Kursiv" nəşri yazır. Söhbət Azərbaycan, Gürcüstan və Türkiyədən keçən Bakı-Tbilisi-Ceyhan boru kəmərindən gedir. Qazaxıstanın planlarına əsasən, neft ixracının həcminin 1,5 milyon tondan 20 milyon tona çatdırılması planlaşdırılır. Bu o deməkdir ki, kəmərlə tədarük həcmi 13 dəfədən çox artacaq.

Yuxarıda qeyd olunan kəmər vasitəsilə neft ixracının həcminin artırılması Qazaxıstana Rusiya vasitəsilə tədarükünü 80%-dən çox azaltmağa imkan verəcək. Bu barədə "Reuters"in materialında deyilir. Bu kimi. Gördüyümüz kimi, Bəşər Əsədin Suriyada hakimiyyəti itirməsi nəticəsində sağ olub-olmamasından asılı olmayaraq, Türkiyə və Azərbaycan qalib gəldi. Və Rusiya üzünə daha bir ağır sillə vurdu.

Kim nə desin, onlar Aralıq dənizindəki yeganə Rusiya hərbi dəniz bazası olan Tartusu itirdilər. Xüsusilə Ukraynada genişmiqyaslı müharibə başlayandan sonra bu, Rusiya üçün strateji əhəmiyyət kəsb edir. Burada Rusiya hərbçiləri nüvə gəmisi də daxil olmaqla 11 hərbi gəmi saxlaya bilərdi. Rusiya NATO-nun birbaşa müdaxiləsindən çəkindirmək üçün 2022-ci il işğalından əvvəl Tartusdakı hərbi varlığını gücləndirib.

Bundan əlavə, Rusiya tərəfindən maliyyələşdirilən və təlim keçən Suriya hökumət qüvvələri Hələbdən 40 km şərqdə yerləşən Quires bazasını Rusiya silahları ilə birlikdə artıq itirib. İnternetdə görünən fotoşəkillərə görə, yaraqlılar Pantsir MANPADS və Uragan MLRS silahlarını nəzarətə götürüblər. Bütün bunlara əsaslanaraq, Rusiya ilə qopma prosesini sürətləndirmək lazımdır. O, məhkumdur. Onun hərbi, iqtisadi, geosiyasi çöküşü yaxın gələcəyin məsələsidir. Biz buna çoxdan əmin olmuşuq. Axı o, hələ Bəşər Əsədin Suriyasından üz döndərməzdən əvvəl Ermənistana xəyanət edib. O vaxtdan bəri Ukraynadakı müharibəyə görə Rusiya daha da zəifləyib. Və onun Gümrüdə hərbi bazasının olması məsələsi, eləcə də Ermənistanın KTMT-dən qəti və rəsmi çıxması məsələsi tezliklə həll edilməlidir. Ermənistanın təhlükəsizliyini təmin edə biləcək yeganə qüvvə NATO-dur. Alyansa tam üzvlük olmasa da, regionda ən mühüm müttəfiq statusu ölkəmizin həyati ehtiyacı olan bir şeydir.

Beləliklə, Əsəd rejiminin çökməsi regionda daşları yerindən oynadıb. Xalqını 71 il əsarətdə saxlayan despot hakimiyyətlə dostluq tellərini hələ də qırmayan Ermənistanın iç üzü tam olaraq üzə çıxmaqdadır. Amma nə fayda, Qərb ölkələri buna görə İrəvana "gözün üstə qaşın var" deyəcəklərmi? İnandırıcı deyil.

***V.VƏLİYEV***

# “Azərbaycan həmişə çoxmillətli, çoxkonfessiyalı diyar olub”

Azərbaycandakı multikultiralizm və tolerant mühit mövcud dəyərlərimizə əsaslanır. Müxtəlif xalqların adət-ənənələrinə, dininə hörmətlə yanaşma xalqımızın milli keyfiyyəti olmaqla yanaşı, humanizm dəyərlərinə, birgəyaşama mədəniyyətinə söykənir. Etnik qrupların sülh şəraitində yaşaması, bərabərhüquqlu fəaliyyətinə yaradılan zəmin multikulturalizmin Azərbaycan modelinin formalaşdığının göstəricisidir. Bu gün ölkəmizin demək olar ki, bütün ərazisində qeyri-xalqların nümayəndələri qarşılıqlı anlaşma və dialoq şəraitində vahid bir ailə kimi yaşayır və milliyyətindən asılı olmayaraq hər kəs bərabərhüquqludur. Humanizm prinsiplərinə əsaslanan ölkəmizdə insan ləyaqətinə xələl gətirən, ona zidd olan dinlərin yayılması və təbliğinə imkan verilmir. Mövcud qanunlar və mövcud mühit ölkəmizdə xristianların, yəhudilərin, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələrinin birgə sülh və əmin-amanlıq şəraitində yaşamasına dəlalət edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, Azərbaycan həmişə çoxmillətli, çoxkonfessiyalı diyar olub və bu da bizim ənənəmizdir: ”Əsrlər boyu müxtəlif xalqlar burada yaşamış, yaratmış, qardaş olmuşdur, bu gün də belədir. Multikulturalizm termin kimi yenidir, amma anlayış kimi bu, həmişə olub və həmişə olmalıdır... Azərbaycan çoxkonfessiyalı, bir çox etnik qrupların birgə yaşadığı unikal bir məkandır. Bu, böyük sərvətimizdir. Mən bunu yenə də deyirəm, sadəcə, xoş söz demək naminə demirəm”. Paytaxt Bakıda, Qubada, Zaqatalada, Qusarda, Qaxda, İsmayıllıda və digər yerlərdə müxtəlif xalqların necə sülh, dostluq şəraitində yaşadığı diqqətdən yayınmır. Hər bir məkanda etnik qrupların icmaları, mədəniyyət mərkəzləri, öz etiqad və ayinlərini yerinə yetirmək üçün olan ibadətgahlar və s. fəaliyyətdədir ki, ölkəmizə gələn qonaqlar bunu yüksək dəyərləndirirlər.













## ”BİZDƏ BU GÜN OLAN BİRLİK, HESAB EDİRƏM Kİ, HƏR BİR ÖLKƏ ÜÇÜN, MULTİKONFESSİONAL VƏ ÇOXMİLLƏTLİ ÖLKƏ ÜÇÜN NÜMUNƏ OLA BİLƏR”

Əlbəttə ki, bu gün müxtəlif dövlət qurumlarında qeyri-xalqların nümayəndələri təmsil olunur, ölkəmizin ictimai-siyasi, mədəni həyatında mühüm rol oynayırlar. Qarabağ uğrunda gedən döyüşlərdə ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri həmrəy oldular. Azərbaycan torpaqlarının işğaldan azad olunması uğrunda müharibədə iştirk etdilər. Azərbaycan vətəndaşı olaraq bir yumruq altında birləşdilər və silaha sarıldılar. ”Mən daxilən 100 faiz buna əminəm ki, ancaq birlikdə, bütün xalqların birgə yaşaması bizi uğura, qələbəyə gətirəcək və gətirib”, - deyən Cənab Prezident qeyd edib ki, İkinci Qarabağ müharibəsində bütün xalqların nümayəndələri bir əsgər kimi vuruşdular, qan tökdülər, şəhid oldular. Vətən uğrunda, Qarabağ uğrunda, Azərbaycan uğrunda vuruşdular. Bu Qələbə və bu müharibə Azərbaycanda yaşayan bütün xalqları daha da birləşdirdi. ”Dəmir yumruq”, sadəcə, güc deyil, bu, birlikdir. Bizdə bu gün olan birlik, hesab edirəm ki, hər bir ölkə üçün, multikonfessional və çoxmillətli ölkə üçün nümunə ola bilər. Siz gənclər, bax, bu ideyaları qorumalısınız. Çünki bu siyasətin uğurlu olması təkcə dövlətdən asılı deyil, hər bir vətəndaşdan asılıdır. Hər bir vətəndaş öz davranışı ilə bu ideyaları tərənnüm etməlidir. Belə olan halda, Azərbaycanda yaşayan bütün xalqlar, Azərbaycan vətəndaşları daim sülh şəraitində, əmin-amanlıq, qardaşlıq şəraitində yaşayacaqlar”.

Azərbaycanda onlarla müxtəlif dini qurum, birlik və icmaların fəaliyyətdə olması ölkəmizdə hökm sürən bu mühiti əsaslandıran amillər sırasındadır. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Azərbaycan Yəhudiləri dini icması, Avropa Yəhudilərinin Bakı dini icması, Bakı şəhəri Dağ Yəhudiləri dini icması, Bakı Krişna Şüuru dini icması, ”Yeni həyat” Xristian İncil dini icması, Bakı şəhəri ”Molokan ruhani-xristian” dini icması, Alban-Udi Xristian dini icması, Gürcü Yəhudilərinin Bakı dini icması, Xilaskar Yevangelik Lüteranların Bakı dini icması və digər qurumlar ölkəmizdə sərbəst və azad şəkildə fəaliyyət göstərirlər. Bu bir daha ona əsaslanır ki, molokanlar, yəhudilər, tatlar, saxurlar, ləzgilər üçün Azərbaycanda geniş imkanlar yaradılıb. Qeyri-xalqların yaşadığı Krasnaya Sloboda, İvanovka kimi kəndlərə daima dövlətimiz tərəfindən diqqət və qayğı göstərilir. Azərbaycan öz dini müxtəlifliyi ilə fəxr edir.

## YÜKSƏK DİNİ-MƏNƏVİ MÜHİTİN QORUNUB SAXLANILMASI

Azərbaycanda bütün dinlərin nümayəndələri qarşılıqlı hörmət və anlaşma, sülh şəraitində birgə yaşayır və Milli Məclisdə təmsil olunurlar. Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir. Son 21 ildə İslam, xristian və digər səmavi dinlərin mədəniyyət nümunələri olan tarixi-memarlıq abidələrinin, məscidlərin, ziyarətgahların, müqəddəs dini sitayiş, inanc yerlərinin təmiri və bərpası ilə bağlı görülən işlər deyilənləri bir daha təsdiqləyir. Dövlət başçısının mütəmadi olaraq din xadimləri ilə görüşü, dini konfessiyalara maddi yardımlar edilməsi, dini ibadət yerlərinin təmir-bərpa olunması, ölkədə həyata keçirilən din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət-din münasibətlərinin mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Bu gün ölkəmizdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. Azərbaycan Prezidentinin məlum Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılıb. Azərbaycan Prezidentinin məlum Sərəncamı ilə Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradıldı. Bu Sərəncam Azərbaycanın xarici dini təsirdən asılılığını azaltmaq, yerli ilahiyyatçı kadr ehtiyacını təmin etmək baxımından əhəmiyyətlidir. Azərbaycan İlahiyyat İnstitutunun yeni binasının açılışı bir daha dini-mənəvi mühitin qorunub saxlanılmasına və inkişaf etdirilməsinə ayrılan diqqətin təzahürüdür. Ölkəmizdə vətəndaşların dini etiqad, vicdan və təhsil hüquqlarının səmərəli realizəsinin ölkə rəhbərliyinin diqqət mərkəzində olmasının bariz göstəricisidir. İnstitutda İlahiyyat fakültəsi, Dinşünaslıq, İslamşünaslıq, Dillər və ictimai fənlər kafedraları fəaliyyət göstərir. İnstitutda ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə yüksəkixtisaslı kadrlar hazırlanır. Hər üç səviyyədə təhsil dövlət sifarişinə əsasən həyata keçirilir.

## DİN DÖVLƏTDƏN AYRIDIR

Müasir dünyada müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin, etnik azlıqların harmoniya halında yaşadığı Azərbaycan uğurlu bir inkişaf yolundadır. Bəzi dünya dövlətlərində terrorizm, islama qarşı hücumlar artıb, islamafobiya güclənib. Avropa dövlətlərində milli mövcudluğu qoruyub saxlamaq cəhdlərinə qarşı aqressivlik, milli, dini və ayrı-seçkilik, mühacir və qaçqınların sıxışdırılması fonunda Azərbaycanda tolerantlıq, dözümlülük, multikulturalizm mühiti diqqətdən kənarda qalmır. Ölkəmizin mədəniyyətlərarası, dinlərarası və sivilizasiyaların təmas mərkəzinə çevrilib. Azərbaycan isə ekstremizm və dözümsüzlük əleyhinə çıxış edir, kənar qüvvələrin, xaricdən gələn təhlükələrin qarşısını almaqda güclü və qətiyyətlidir. ”İndiki şəraitdə biz görürük ki, dünyanın müxtəlif yerlərində dini məzhəb zəminində qan tökülür, müharibələr alovlanır, böyük faciələr yaşanır” - deyən Azərbaycan Prezidenti bildirib ki, elə etməliyik ki, həm Azərbaycanda, həm yaşadığımız bölgədə vəziyyət müsbət istiqamətdə inkişaf etsin: ”Biz adada yaşamırıq, biz bu bölgədə yaşayırıq və yaşayacağıq. Ona görə biz həm ölkə daxilində bu məsələləri daim diqqət mərkəzində saxlayırıq və hesab edirəm ki, beynəlxalq təşəbbüslərlə bölgədə və dünyada dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi işinə öz töhfəmizi veririk”.

Həqiqətən də, Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Qərbi Azərbaycana qayıdış: Tarixi ədalətin bərpası uzaqda deyil

***Xalqımız müxtəlif dövrlərdə amansız sınaqlara, yurd itkisinə məruz qalmışdır. XX əsrin sonu - XXI əsrin əvvəllərində qonşuluğa və bəşəri normalara zidd olaraq Ermənistan Azərbaycan torpaqlarının 20 faizini ələ keçirmiş və 30 ilə yaxın işğal altında saxlamışdır.***

Bir çox tarixçi və tədqiqatçılar ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasətininin əsasən üç mərhələsini qeyd edirlər. Azərbaycanlıların Qərbi Azərbaycandan ilk deportasiya dövrü 1905-1920-ci illəri əhatə edir. O zaman milli zəmində baş verən qanlı hadisələr nəticəsində həmin ərazidə mövcud olmuş 1000-ə yaxın Azərbaycan kəndi xəritədən tamamilə silinmişdir. Daha sonra sovet hökuməti tərəfindən 1948-1953-cü illər ərzində hiyləgər erməni millətçilərinin təhriki nəticəsində diktator İosif Stalinin göstərişi ilə 150 mindən artıq azərbaycanlı dədə-baba yurdundan deportasiya olunmuşdur. 1988-ci ildə baş vermiş son deportasiya hadisəsi isə əvvəlkindən fərqli amillərlə səciyyələnir. Bu deportasiya milli zəmində, Qərbi Azərbaycanda yaşayan 300 minədək həmvətənimizin öz doğma yurdlarından zorla qovulması ilə tarixə düşüb.

Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələnmiş 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni reallıqlar növbəti hədəfləri dəf etmək üçün daha böyük imkanlar açmışdır. Sevindirici haldır ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən və uğurlu siyasəti sayəsində Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında böyük yol qət edilmişdir. Azərbaycanlıların, o cümlədən Qarabağdan və Qərbi Azərbaycandan məcburi köçkün və qaçqın düşmüş vətəndaşlarımızın hüquqlarının müdafiəsi beynəlxalq səviyyəyə çıxarılmışdır. Dövlət başçısı Qərbi Azərbaycanın soydaşlarımızın tarixi torpağı olduğunu nüfuzlu beynəlxalq kürsülərdən bəyan etmişdir.








Amma bütün bunlarla yanaşı, bu problemin həlli üçün beynəlxalq səviyyədə güclü bir hüquqi və siyasi təzyiqə ehtiyac var. Ədalətin bərpası yalnız soydaşlarımızın hüquqlarının tanınması ilə deyil, həm də bu hüquqların real olaraq təmin edilməsi ilə mümkündür. Qərbi Azərbaycanlıların qayıdışı beynəlxalq hüququn əsas prinsiplərindən birinə - insanların öz yurdlarına qayıtmaq hüququna əsaslanır. Bu hüquq BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Avropa İnsan Hüquqları Konvensiyası və bir sıra digər beynəlxalq sənədlərlə təsbit olunmuşdur.

Qərbi Azərbaycandan qovulan insanların əmlaklarına qarşı törədilmiş zorakılıq həm beynəlxalq hüquqa, həm də insanlıq dəyərlərinə ziddir. Onların mülkiyyət hüquqlarının bərpası ədalətin təmin olunması üçün vacibdir. Mülkiyyət hüquqlarının pozulması yalnız insanların əmlaklarının mənimsənilməsi ilə yekunlaşmır. Bu, onların şəxsi və ailə həyatlarına, iqtisadi təhlükəsizliyinə də zərbə vurmuşdur. Əmlakların geri qaytarılması, dağıdılmış binaların bərpası və qanuni sahiblərə kompensasiya ödənilməsi beynəlxalq hüququn tələbidir. Ümumiyyətlə, Ermənistanın birgəyaşayış üçün mühit, şərait yaratması həm tarixi, həm də müasir dövrün ən böyük çağırışlarından biridir. Bu, yalnız Azərbaycanın maraqlarına deyil, Ermənistanın və ümumilikdə regionun sabitliyinə də xidmət edən addım olardı.




Birgəyaşayışın təminatı üçün Ermənistan nifrət ritorikasından əl çəkməli, azərbaycanlıların qayıdışını təmin etməli və mədəni müxtəlifliyə hörmət göstərməlidir. Bu prosesin həyata keçirilməsi zamanı beynəlxalq qurumların vasitəçiliyi və nəzarəti vacibdir. Davamlı sülh və inkişaf yalnız hər iki tərəfin birgə səyi ilə mümkündür. Ermənistan bu istiqamətdə səmimi addımlar atmalı və keçmişdən ibrət götürməlidir.

Bu məsələlər Bakıda Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçirilən II beynəlxalq konfransda geniş müzakirə edilmişdir. Tədbirin əsas məqsədi Qərbi Azərbaycandan olan insanların qayıdış hüququnun beynəlxalq ictimaiyyətin diqqət mərkəzinə çıxarılması idi. Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının üzvlərinin, beynəlxalq ekspertlərin, yerli və xarici diplomatların iştirak etdikləri konfransın iştirakçılarına müraciətində Qərbi Azərbaycandan olan insanların hüquqlarının qorunmasının əhəmiyyətini vurğulamış və rəsmi Bakının bu istiqamətdə qətiyyətli mövqeyini bir daha bəyan etmişdir. Prezident İlham Əliyev məktubunda Qərbi azərbaycanlıların hüquqlarının bərpasının beynəlxalq hüquq normalarına uyğun olduğunu və bu məsələnin sülh yolu ilə həll edilməsinin vacibliyini qeyd etmişdir. Konfransda, həmçinin Qərbi Azərbaycandan olan insanların tarixi yaddaşını, hüquqlarını və dəyərlərini qorumaq üçün gələcək planlar müzakirə olunmuşdur.

Bu tədbir Qərbi Azərbaycan İcmasının milli və beynəlxalq platformalarda aktivliyini artırdığını və dünya ictimaiyyətinə Azərbaycanın mövqeyini çatdırmaq istiqamətində səy göstərdiyini nümayiş etdirdi. Bu gün Qarabağa və Şərqi Zəngəzura böyük qayıdışımız həyata keçirilirsə, yaxın gələcəkdə Qərbi Azərbaycana dönüşümüz də real olacaq. İnam və qətiyyətlə hədəflərə, məqsədlərə doğru irəliləyən Azərbaycan hər bir vətəndaşının arzularını reallığa çevirməyi qarşısına məqsəd qoyub. Bu məsələdə Qərbi Azərbaycan İcması öz üzərinə düşən tarixi missiyanı uğurla yerinə yetirir. İcma Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün yorulmadan çalışır. Bu məqsədlə təsdiqlənmiş və icrası uğurla davam etdirilən "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası" xalqımızın birlik və həmrəyliyini göstərir.

***Nigar Orucova***



# "Əsəd rejiminin sonu bəlli idi"



"Əsəd rejiminin sonu bəlli idi və o da bəlli idi ki, rejimin bu şəkildə davam etməsi mümkün deyil". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib. O bildirib ki, hər gün ağırlaşan vəziyyət nəticə etibarilə təkcə xalqı deyil, ordunu da artıq Əsəd rejimindən bezdirmişdi: "Rusiyanın Ukrayna ilə müharibə fonunda Əsəd rejiminə dəstəyinin azalması, eləcə də İranın proksi qüvvələri olan Həmas, Hizbulla kimi qüvvələrə qarşı keçirilən əməliyyatlar, İranın özünün də İsraillə kəskinləşən münasibətləri rəsmi Tehranın da Əsədə dəstək imkanlarının məhdudlaşdırdı. Müxalif qüvvələr də məhz bu amilləri nəzərə alaraq, düzgün zaman və strateqiya seçimi sayəsində hakimiyyəti ələ almağı bacardılar.

Bu proseslərdə Türkiyənin mühüm rolu və qarşıdan gələn dövrdə də Suriyada proseslərin dinc inkişafına verə biləcəyi töhfələr şübhəsizdir. Çünki Türkiyə indiki mərhələdə Suriyanın gələcəyində həlledici mövqe tutan ən əsas ölkədir. Bu prosesdə Türkiyənin diplomatik və hərbi addımlarının təsiri Suriyanın yenidən formalaşdırılmasında kritik əhəmiyyətə malik olacaq. Çünki bu, təkcə diplomatik cəhətdən deyil, həm də xalqın istəyindən yaranan zərurətdir.

Odur ki, indi Türkiyə birincisi, müxalif qüvvələrin müxalifətin müxtəlif təbəqələri arasında konsensusun əldə olunması üçün fəal şəkildə çalışır. İkincisi, Türkiyə Suriyanın bütövlüyünü qorumaq və PKK, YPG kimi qurumların güclənməsinə mane olmaq üçün mübarizə aparır. Üçüncüsü, Türkiyə, Misir, Qətər və Suriya arasında enerji əməkdaşlığını genişləndirmək məqsədilə bölgəni Avropanın əsas qaz təchizatçısına çevirmək imkanlarını araşdırır. Son nəticədə, Suriyada kimin hakimiyyətdə olması və hansı dövlətin maraqlarının təmin edilməsi məsələlərindən asılı olmayaraq, danışıqların əsas tərəflərindən biri Türkiyə olacaq.

Suriyada baş verənlər təbii olaraq bizim üçün də böyük maraq doğurur. Birincisi, ona görə ki, Əsəd rejiminin çökməsi strateji müttəfiqimiz, qardaş ölkə olan Türkiyənin mövqelərini gücləndirdi. İkincisi isə Əsəd rejiminin uzun illər ərzində Ermənistana vediyi dəstək fonunda indi bu rejimin süquta uğraması bizim də maraqlarımıza cavab verir".

Onun sözlərinə görə, məlumdur ki, Bəşər Əsəd hakimiyyətdə olduğu illərdə Azərbaycana qarşı düşmənçilik mövqeyindən çıxış edirdi: "Azərbaycana dost olmayan ölkələrlə - xüsusilə də Ermənistan, İran və Hindistan kimi ölkələrlə xüsusi yaxınlıq nümayiş etdirir, bizimlə dost olan Türkiyə, Pakistan və İsrail kimi ölkələrlə isə əksinə düşmənçilik münasibəti sərgiləyirdi. Beynəlxalq təşkilatlarda Azərbaycanın Ermənistana qarşı təşəbbüs etdiyi sənədlərin bloklanmasında fəal iştirak edən Əsəd hakimiyyəti, Ermənistanla açıq-aşkar müttəfiqlik edirdi. İslam Əməkdaşlıq Təşkilatında hər dəfə Azərbaycanın Ermənistana qarşı qaldırdığı təşəbbüslərin əleyhinə çıxış etməklə də Ermənistana bütün imkanları ilə dəstək nümayiş etdirirdi. Bütün bunlarla yanaşı Suriyanın daxilindəki ermənilərə də xüsusi imtiyazlar verilmişdi. Məsələn sayları 3.5 milyon civarında olan Türkmənlərə hər hansı hüquqlar verilmədiyi halda Suriya Konstitusiyasına görə ermənilərə azlıq status verilmişdi. Bu məqam ölkənin 1949 və 1972-ci il konstitusiyalarında öz əksini tapıb. Yəni, Suriyada yalnız ermənilər azlıq kimi qəbul olunub. Başqa icmalar isə Suriya ərəb vətəndaşları kimi tanınırdı və faktiki olaraq vətəndaşlıq adı altında türkmənlərin assimilyasiyası aparılırdı. Odur ki, indi Əsəsd rejiminin çökməsi ilə onun dəstək verdiyi Ermənistan və Hindistan kimi ölkələr də faktiki olaraq uduzmuş tərəfdə yer alırlar. Həm Əsəd rejiminə, həm də Ermənistana dəstəyi ilə seçilən İran da çıxılmaz vəziyyətlə üzləşib.

Ümid edirik ki, Türkiyə dəstəkli müxalif qüvvələrin Suriyada söz sahibi olması, eləcə də əslində Azərbaycan könlü hesab olunan türkmənlərin də bu və ya digər şəkildə Suriyada mövqelərini möhkəmləndirməsi ilə bundan sonrakı Suriya Azərbaycana qarşı düşmən mövqedə dayanan ölkə olmayacaq".

***Söylü Ağazadə***

## FELYETON



# Ölmək istəyirik...

İndi durub kiməsə sual versən ki, niyə ölmək istəyirsən? Deyəcək ki, canın ölsün, mənə də qurban olasan, belə sən ölsən, gəlim halvanı yeyim, əzizin ölsün, ehsana gəlim...

Amma biz əslində ölmək istəyirik. Yuxarıdakı sual ağır gəlsə də, verəcəyimiz təqdirdə cavabımızı məhz o cür almalı olsaq da, mən deyim, siz qulaq asın ki, biz niyə ölmək istəyirik. Ay qardaşlar, ay bacılar, marketlərdə yağlar satılır, əsl demək indiki zəmanədə bir az qəbahət olar, ortabab kərə yağından dəfələrlə ucuz. Əksər insan da marketə girən kimi qaçır o yağların üzərinə.

Baxırsan-baxırsan, deyirsən ki, biz həqiqətən də ölmək istəyirik. Sırağagün marketlərdən birində sosiska vardı, endirimə düşmüşdü. Bir kiloqramı əvvəl 9, indi 6 manat olmuşdu. Daşıyanın sayı vardı, hesabı vardı... Hələ əvvəlki qiymətini düşünüb öz-özümə dedim, görəsən, bu sosiska nə ətindən hazırlanıb ki, bir kiloqramı 9 manata başa gəlir. Çox düşündüm, amma cavab tapa bilmədim.

Sosiskanı daşıyanlara baxa-baxa dedim ki, görəsən, biz niyə ölmək istəyirik?

O günləri qonşudayam. Kənddən anası zəng vurub deyir ki, bəs anan ölsün, bir gələn də yoxdur ki, sizə yumurta, pendir göndərəm. Qonşum da cavab verir ki, ay ana, səni istəməyən ölsün. Yumurtanı, pendiri nə edirəm, buralar doludur. Metrodan evədək elli yerdə yumurta qoyublar, kənd yumurtası, qiyməti də 30-35 qəpiyə, alıb gətirirəm. Marketlərdə elə ləzzətli pendirlər var ki, sənin pendirin onların yanında heç nədir. Ta biz o pendirlərə öyrənmişik. Göndərsən də yeyə bilmərik. Əziyyət çəkib göndərmə heç.

Belə baxdım-baxdım, dedim, İlahi, biz niyə ölmək istəyirik?

Qohumlardan birinin qızı nişanlanıb. Ana da başlayıb qızına cehiz yığmağa. O gün deyir ki, qıza slikon yorğan-döşək, yastıq aldım. Nə az, nə çox, bu dəstə 600-700 manat da pul verib. Mən də dedim, axı elə bil sən yun yorğan-döşək hazırlamışdın qıza? Deyir, hazırlamışdım, hə, düzdür, amma indi qızlara yun yorğan-döşək vermirlər. Ta yun dəbdən düşüb.

Nə ağ dindim, nə qara. Dedim görəsən, biz niyə ölmək istəyirik?

Aradabir evə yaxın parka gedirəm. İtlər də sahibləri ilə parka gəlirlər. Nə qədər it saxlayır camaat?.. Saxlasınlar, əlbəttə, özləri bilər. Amma arada görürəm ki, sahibləri bu itləri basıb bağrına düz ağzından öpürlər...

Baxıram-baxıram, deyirəm, görəsən, biz niyə ölmək istəyirik?

***Mətanət Məmmədova***



MƏTANƏT

# Saxtalara "əlvida" deyirik

***Bu gün həyatımızda saxta olan çox şey var. Odur ki, onların əziyyətini çəkir, vəzifəsinin sahibi olmayan, təbii ki, belə olan halda işinin öhdəsindən gələ bilməyənlərin başımızda öyrəndiyi dəlləkliklə min ərşin quyunun dibinə yuvarlanırıq.***

Yəqin ki, bizim də ağlımız bir o qədər yerində deyil. Soruşsanız ki, bu nə deməkdir? Bəli, əksəriyyətimizin ağlı başında deyil. Ona görə ki, hər hansı bir məsələni araşdırmadan, götür-qoy etmədən qərar verir, həyati təhlükə ilə üz-üzə qalırıq. İndi bütün sahələrdə saxta olanlar var. Şükürlər olsun ki, beləları artıq yavaş-yavaş ortaya çıxarılır və haqqlarında tədbir görülməyə başlanılır. Yüzlərlə insan onların "fəaliyyətindən" zərər görsə də, yenə də başqalarının da həmin tora düşməməsi əsas şərtdir.

Ötən ay həmkarımız Qənirə Ataşovanın paylaşdığı saxta diplomlu həkimlərlə bağlı 49 nəfərdən ibarət siyahı ölkədə yamanca səs-küyə səbəb oldu. Hələ bunun üçün Qənirə xanıma nə zənglər, nə xahişlər, nə minnətlər, təqiblər olundu. Lakin artıq nə fayda? İş-işdən keçmişdi və saxta diplomlarla işləyən həkimlər ortaya çıxmışdı.

Maraqlıdır, deyilmi, belə görünür ki, Qənirə Ataşova olmasaydı, bu həkimlər hələ neçə illər boyu da başlarını aşağı salıb sakitcə işləyəcəkdi, hə? Yaman hala saldıqları pasientlərə isə şikayət etməmələri üçün hansısa kələkləri gələcək, pul qarşılığında onları susduracaqdılar.

Gözəllik axtarışına çıxdığı halda yüzlərlə insanı tanınmaz vəziyyətə salan, onlara mənəvi zərbələr vuran, adam içinə çıxmalı hal qoymayan belə həkimlər öz əməllərindən utanıb bacarmadıqları işi nə üçün davam etdirmək istəyiblər. Yəni pul bu qədər şirindir ki, görürsən, biabır olursan, saxta diplomun üzə çıxır, insanlar üzərinə gəlir, yenə də əməlindən vaz keçmirsən?

Nə yaxşı ki, həmkarımz bu addımı atmışdı, yoxsa düşünün ki, daha nələr baş verəcəkdi. Aid qurumlar susacaq, səsini çıxarmayacaq, bunlar da bildiklərini edəcəkdi. Lakin artıq işə hüquq-mühafizə orqanları da qarışıb. Belə ki, DİN-in Mətbuat Xidmətinin rəisi Elşad Hacıyev bu barədə İTV-nin efirində diplomsuz plastik cərrahlarla bağlı danışarkən deyib.

Qurum rəsmisi dövlətin məsələdə ciddi mövqeyinin olduğunu və araşdırmalara başlanıldığını qeyd edib: "Bilinməlidir ki, sosial şəbəkədə, internetdə parlaq, cəlbedici görünən çağırış, reklam aldadıcı ola bilər. Qənirə Ataşovanın paylaşımından sonra ona xeyli sayda təzyiq və təhdidlər oldu. Bunların araşdırılması DİN-in aidiyyəti baş idarəsində aparıldı. Bu paylaşımların dayandırılması üçün Qənirə xanıma mesajlar yazılıb.

Burada qənaətə gəldik ki, həmin şəxslər bu iddialara cavab vermək əvəzinə, təzyiq etməyi üstün tutublar. O həkimlərin biri çıxıb sosial şəbəkədə iddialara cavab vermədi. Diplomun, sertifikatın yoxdur deyilirsə, təqdim etməlisən.

DİN-ə daxil olan müraciətləri nəzərdən keçirəndə aydın olur ki, zərərçəkmişlərin çoxu sonradan susdurulub. Zərərçəkmiş şikayətin geri götürür ki, həkimlə arasındakı problemi həll edib.

Bütövlüklə cəmiyyət olaraq biz hüququn işləyə biləcəyi formada qaydaları tənzim etməliyik. Qanunsuz fəaliyyət göstərirsənsə, cəza təhdidi var.

Çox gözəl. Deməli, saxtakarlara çox keçməz, "əlvida" deyərik. Onlar da başa düşməyə çalışar ki, gedib xarici ölkələrdə 2-3 həftəlik kurs keçib saxta diplom və sertifikat almaq həkim kimi məsuliyyətli adı daşımağa və çətin bir peşə fəaliyyəti ilə məşğul olmağa əsas vermir.

Beləliklə, saxtakarlar getməyə başlayır. Ümidvarıq ki, ölkədə saxta əməllərlə məşğul olanların hər biri onların cərgəsinə qoşular. İstənilən sahədə beləlari var, yəqin ki, araşdırılar, üzə çıxarılar, yola salınar.

# Almaniya Bundestaqında “Hayl Hitler” salamı səslənib

*2025-ci il fevralın 23-də keçiriləcək seçkilərdə nasistlər üstünlük əldə edə bilər*



Dünyanın az qala bütün bölgələrində böhranlı, narahat proseslər yaşanır. Müharibələr, münaqişələr, vətəndaş qarşıdurmaları balaca hesab olunan dünyamızın durumunu ağır və fəlakətli vəziyyətə salıb. Nüfuzlu beynəlxalq təşkilatlar, özlərini hegemon, aparıcı dövlətlər kimi təqdim edən ölkə başçıları, siyasətçilər isə susurlar. Sanki belə olmalıdır. Elə bil dünyanın güc mərkəzləri insan ölümlərindən, şəhər və qəsəbələrin, kəndlərin viran qalmasından zövq alırlar. Tarixin acı nəticələrindən dərs almaq halları da görünmür. Hansı ki, yaxın keçmişdə dünyanın elə dövlətləri, elə bir qaniçən başçıları olub ki, nəinki, öz xalqına, ümumiyyətlə dünya insanlığına böyük faciələr yaşadıblar. Çində Mao Çzedun, SSRİ- də İosif Stalin, Argentinada Xorxe Videla, Çilidə Auqusto Pinoçet, Rumıniyada Nikolae Çauşesku, Kubada Fidel Kastro, Almaniyada Adolf Hitler, Kambocada Pol Pot, Şimali Koreyada Kim İr Sen, İraqda Səddam Hüseyn və nəhayət, Suriyada Bəşər Əsəd nəinki öz xalqına, ümumilikdə bəşəriyyətə böyük fəalakətlər yaşadıblar. Xalqların atası` kimi təqdim edilən SSR rəhbəri İ.Stalin insanlara qarşı davamlı repressiyalar həyata keçirib. Nəticədə günahsız yerə 50 milyondan çox insan ya güllələnib, ya da həbsxanalarda aclıqdan dünyasını dəyişib. Ukrayna xalqını özünə tabe etdirə bilməyən Stalin onların bütün taxıl ehtiyatını müsadirə etdirib. Nəticədə ”Qolodomor” adı verilən faciə yaşanıb. Ukraynada çoxları bu faciənin soyqırımı kimi tanınmasını istəyirlər. Adolf Hitler Almaniyada nasist partiyasını yaratmaqla dünyada ən dəhşətli müharibənin başlanğıcının əsasını qoydu. Apardığı vəhşi siyasəti ilə 70 milyon insanın həyatını itirməsinə 130 milyon insanın isə yaralanmasına və sağlamlığından məhrum edilməsinə baiskar oldu. Çin lideri olmuş Mao Çzedun qəddarlığı və vəhşiliyi nəticəsində 14 milyon insan müxtəlif işgəncə maşınları və güllələnməklə öldürülmüşlər. Kambocada ”qırmızı kxmerlər”in lideri Pol Pot insanlara işgəncə verməkdən, onları qəddarlıqla öldürməkdən zövq alan barbarlardan olub. Onun əmri nəticəsində 2 milyon kambocalı qətlə yetirilmişdir. Rumıniyada Nikolae Çauşesku 2,5 milyon insanın öldürülməsində adı keçir.

## Çauşeskunun iti insandan üstün hesab olunub

Onun hakimiyyəti dövründə əhali ac və səfil ömür sürməyə məcbur olmuşdur. Ölkə əhalisinin az qala 90 faizi kasıblıq həddindən də aşağı səviyyədə ”yaşamış”dır. Əvəzində isə Çauşeskunun Korbu adlı sevimli iti cahcəlallı ömür yaşamaq mükafatı almışdır. İtə onu Buxarestdə gəzdirən xüsusi limuzin ayrılmışdı. Bununla yanaşı, it çoxlarının böyük həsədlə baxdıqları Çauşeskunun çoxsaylı villalarının birində dəbdəbəli otaqda yatırdı. Hər gün Londondon it biskvitləri alıb Buxarestə göndərmək isə Rumıniyanın Böyük Britaniyadakı səfirinin xidməti vəzifəsinə daxil idi. Ən böyük biabırçılıq isə devrilməzdən bir müddət əvvəl Çauşesku sevimli itinə Rumıniya ordusunun polkovniki rütbəsi verməsi olmuşdur. Diktatorun sonu isə faciə ilə bitdi. Çauşesku və həyat yoldaşı birgə qaçmaq istəsə də, Tırqovişte şəhərində həbs edildilər. Cəmi iki saat davam edən məhkəmə prosesində Nikolay və Yelena Çauşeskular soyqırım ittihamıyla ölüm hökmünə məhkum olunurlar. Şikayət üçün formal olaraq 10 gün vaxt verilsə də, hökm həyata keçirilir. Keçmiş diktator və xanımının meyiti bir neçə gün stadionda qalandan sonra Buxarestdə dəfn edilir.

Bir sözlə, bəşər tarixinə nəzər saldıqda aydın olur ki, vəhşilikləri ilə dünya xalqlarına fəlakətlər yaşadanların sonu faciə ilə bitir. Diqqətçəkən məqam isə ondan ibarətdir ki, ”tiran”lar yetişdirən xalqların üzdə olan və ya hakimiyyəti zəbt etmiş siyasətçiləri keçmişə boylanıb baş verənlərdən, yaşananlardan nəticə çıxartmırlar. Əksinə, bəzi hallarda sələflərinin yerişini yeriməyə, onların siyasətini təkrarlamağa çalışırlar. Təəccüb və təəssüf doğuran hal ondan ibarətdir ki, dünyada insanlığa qarşı amansız soyqırımı aktları həyata keçirmiş dövlətlərin nümayəndələrinin bugünkü nəvələri babalarının əməllərini davam etdirməyə çalışırlar. Fakt ondan ibarətdir ki, son iki yüz ildə bəşəriyyətə ən böyük faciələri, insan qırğınlarını Almaniya yaşadıb. Dünya tarixində yeganə dövlətdir ki, yəhudiləri yer üzündən silmək üçün soyqırımı aktları həyata keçirib. Məhz buna görə də ilk dövlətdir ki, törətdiyi soyqırımı aktına görə, İsrail dövlətinə təzminat ödəməkdədir. Qısası, Almaniya bəşəriyyətə və insanlığa təhlükə yarada biləcək dövlətdir. Bu başıbəlalı dövlət adına iddia edən quruluş 20-ci əsrdə törədilən iki dünya müharibəsinin təşkilatçısı və iştirakçısıdır. Gözləmək olardı ki, bugünkü Almaniya quruluşunun indiki rəhbərləri və hakimiyyətə iddialı siyasətçiləri ululanının vəhşi, qaniçən siyasi səhvlərindən nəticə çıxaracaq və sakit, sabit, xalqlara sülh aşılayacaq siyasət həyata keçirəcəklər. Lakin bugünkü Almaniya siyasi səhnəsində fərqli mühit yaşanır. Almaniya dövləti və onun törəmə mərkəzləri faşist ideologiyasını ölkə ərazisində yaymağa üstünlük verirlər. Faşist dərnəkləri nasizmin məqsəd və vəzifələrinin gənclər arasında daha geniş təbliğ edilməsi məqsədi ilə Adolf Hitlerin qələmə aldığı ”Mayn kampf (”Mənim mübarizəm”) kitabını yeni formada çap etməklə yayımını həyata keçirir. Bütün bunlar yeni müharibələrə hazırlıq deməkdir. Həm də nəzərə almaq lazımdır ki, Almaniya silah istehsalına və satışına görə, dünyada 4-cü ölkədir.

## Almaniya nüvə silahı istehsal etməyi planlaşdırır

Almaniya hazırda kütləvi şəkildə dağıdıcı gücə malik silahlar istehsal edir və bu silahları münaqişə aparan dövlətlərə satır. Hətta Almaniya nüvə silahı istehsal etməyi planlaşdırır. Almaniyanın nüvə silahına malik olması bəşəriyyətə bəlalar gətirə bilər. Bir növ Almaniyanın faşist təmayüllü qüvvələrinin əlində atom bombasının olması terrorçuların nüvə silahı ilə bəşəriyyəti hədələməsi deməkdir. Kim zəmanət verə bilər ki, sabah faşist ideologiyası ilə ”silahlan”mış Hitlerin nəvələri hansısa ölkəni işğal etməsi üçün nüvə silahından istifadə etməyəcək? Təbii ki, atom bombasından istifadə edilməsi dünyanın sonunu gətirəcək. Vəziyyətə dünyanın loyal yanaşmasından istifadə edən Almaniyanın siyasi dairələri faşizmin hakimiyyətə gəlməsinə münbit şərait yaratmağa çalışırlar. Daha doğrusu, bir qədər əvvəl Avropa Parlamentinə keçirilən seçkilərdə faşizm ideologiyasının daşıyıcıları ölkədə böyük seçici dəstəyi qazanmışlar. Xüsusilə də, Almaniyada Avropa Parlamentinə keçirilən seçkilərdə ”Almaniya üçün Alternativ” partiyası, əslində, faşizmin təbliğatçısı olan partiya 15,9 faiz səs toplayaraq ikinci yeri tutub. ”Almaniya Sosial Demokrat Partiyası”, ”Yaşıllar”, ”Xristian Demokrat və Xristian Sosial Birlikləri”nin mühafizəkar bloku və ”Sol Partiya” bu seçimə qarşı çıxıblar. Onlar Almaniya Federal Konstitusiya Məhkəməsinə sağçı ”Almaniya üçün Alternativ” (AfD) partiyasının fəaliyyətini qadağan edilməsini iddia edən şikayət təqdim ediblər. İddiaçılardan biri olan, deputat Marko Vandervits bildirib ki, Bundestaqda fraksiyalararası sorğu vermək üçün 37 deputat rəyi lazımdır: ”Fraksiyalardan böyük çoxluğu AfD-nin qadağan edilməsi təklifini dəstəkləyir. Müraciətdə hökumətin partiyadan ayrılan maliyyə vəsaitinin geri çəkilməsi ilə bağlı alternativ təklif də var. Ərizənin təsdiqlənməsi üçün Bundestaqda sadə səs çoxluğu tələb olunur. Əgər varsa, ətraflı sorğu hazırlanacaq. Belə olan halda Federal Konstitusiya Məhkəməsi bu qadağa tələbinin məqbul və əsaslı olub-olmadığını nəzərdən keçirməli olacaq”.



## Şolts hakimiyyəti faşizm dərnəklərinə gizli formada dəstək göstərir

Almaniyada ”Almaniya üçün Alternativ” partiyasını sağçı populist partiya adlandırırlar. Digər siyasi qüvvələr onunla hansısa koalisiya çərçivəsində - nə federal, nə də regional səviyyədə əməkdaşlıq etməyi qeyri-mümkün hesab edir. Eyni zamanda, son ictimai rəy sorğularına görə, partiyanın reytinqi 19-20% arasındadır. Ehtimal olunur ki, ölkənin indiki federal-kansleri Olaf Şolts faşizm dərnəkləri, o cümlədən də ”Almaniya üçün Alternativ” partiyası ilə əməkdaşlıq edir. Siyasi təhlilçilərin qənaətincə O.Şolts faşizm dərnəklərinə gizli formada dəstək verməkdə məqsədi 2025-ci il fevralın 23-də Bundestaqa planlaşdırılan seçkilərdə dəstək əldə etməkdir. Almaniyanın Xristian-Demokrat və Xristian-Sosial ittifaqlarının, həmçinin Sosial-Demokrat və Yaşıllar partiyalarının mühafizəkar bloku növbədənkənar parlament seçkilərinin tarixi ilə bağlı razılığa gəliblər. Razılığa əsasən, erkən seçkilər 2025-ci il fevralın 23-də keçiriləcək. Almaniya Kansleri Olaf Şolts hökumətə etimad məsələsini dekabrın 16-da Bundestaqın müzakirəsinə çıxarmağı planlaşdırır. Bundan sonra növbədənkənar seçkilərə yol açılacaq. Deputatlar kanslerə etimaddan imtina etsələr, AFR prezidenti qanunvericiliyə əsasən, 21 gün ərzində Bundestaqı buraxmaq məcburiyyətində qalacaq və 60 gün ərzində yeni seçkilər keçiriləcək. Seçkilərdə yenidən uğur qazanmaq üçün Olaf Şolts hər cür iddiaları, təklif və ideyaları qəbul edir. Bəzən nasizm açıq şəkildə təbliğ edilməsinə belə göz yumur. Misal üçün Olaf Şolts zalda olduğu zaman Bundestaqın bir neçə deputatı ”Hayl Hitler” salamını səsləndirməsini göstərmək olar. İddialara görə, Azad Demokrat Partiyasının nümayəndəsi Kristian Lindnerin maliyyə naziri vəzifəsindən istefa verməsinin başlıca səbəblərindən biri də ”Hayl Hitler” salamının səslənməsi və buna kansler Olaf Şoltsun susmasıdır. Nasist partiyasının üzvü, Bundestaqın fəal deputatlarından olan Frank Şveber, Angela Merkelin mənsub olduğu Xristian Demokrat İttifaqı partiyasının bir neçə üzvü, Yaşıllar partiyasının üzvü, deputat Till Ştefferi açıq şəkildə faşizmi təbliğ edirlər. Narahatlıq yaradan amillərdən bir də ondan ibarətdir ki, faşizmin tərəfdarları Adolf Hitlerin ”fürer” elan olunduğu 30 yanvar tarixini təntənəli şəkildə qeyd etməyə hazırlaşır. Bununla bağlı təşkilat komitəsi yaradılıb və işlərin bölgüsü aparılıb. 1933-cü ilin 30 yanvarında Hindenburqun offisində Adolf Hitler kansler kimi andiçmə mərasimindən keçirilib. Nasistlərin hakimiyyəti bu yolla ələ keçirmələri tarixdə ”Machtergreifung” kimi tanınır. Ehtimal olunur ki, 30 yanvar tarixində keçiriləcək konfrans ”Hitler salamı” ilə açıq elan olunacaq və Hitlerin həyat yolu, siyasi fəaliyyəti, faşizmin yaranma tarixindən danışılacaq. Məlum olduğu kimi, ”Hitler salamı” Adolf Hitlerə itaət göstərmək və alman millətinə və müharibə səylərinə görə minnətdarlıq ifadə etmək üçün Milli Sosialist Alman Fəhlə Partiyası tərəfindən qəbul edilmiş salamdır.

1923-cü ilin payızına qədər Milli Sosialist Alman Fəhlə Partiyasının üzvləri öz liderini tam uzadılmış qol salamı ilə qarşılayırdılar. Hitler sağ əlini qaldıraraq, dirsəyini arxasına əyərək və ovucunu yuxarı açaraq cavab verərdi. ”Hayl Hitler” salamı 1923-cü ildən partiya üzvləri tərəfindən ara-sıra istifadə olunub.

## Dünya fəlakət astanasındadır

1933-cü ildə Almaniyada Nasional Sosialist Alman Fəhlə Partiyası hakimiyyətə gələndən sonra ”Hitler salamı” Vermaxt əsgərləri və dinc əhali üçün məcburiyyət halına gətirilmişdir. Üçüncü Reyx dönəmi ərzində sözügedən jest ümumi birlik ifadəsi kimi izah olunurdu. ”Çox yaşa Hitler” və ”Hitlerə salam olsun” kimi anlamlara gələn ”Hitler salamı” alman dilində ”Heil Hitler” olaraq adlandırılmışdır.

Hazırda Almaniyada faşizmin dövlət səviyyəsində dəstək verilməsi və inkişaf etdirilməsi onu deməyə əsas verir ki, bəşəriyyətimiz təhlükə ilə üz-üzədir, hər an dünya müharibəsi baş verə bilər. Faşizmin atom silahı əldə etməyə səy göstərməsi isə daha təhlükəlidir. Çünki faşizm ən qorxulu terrorçu dəstələrdən belə təhlükəlidir. Bu baxımdan faşizm atom silahı əldə edərsə, bu, artıq dünyanın sonu demək olacaq. Ona görə də, dünyada sülhün və təhlükəsizliyin tərəfdarı olan və bunun uğrunda mübarizə aparan, fəaliyyət göstən mərkəzlər, qurumlar, nəhayət, dövlətlər və beynəlxalq təşkilatlar ayıq-sayıq olmalı və faşizmin məhv edilməsi üçün ümumi birlik ortaya qoymalıdır. Əks halda sakit dünya yaratmağa çalışdığımız zaman məqsəd və mübarizə nəticəsiz qalar və yeni bir dağıdıcı müharibə fəlakətlərinin qurbanı ola bilərik.

**İLHAM ƏLİYEV**

# Ətirlərin xərçəng yaratdığını bilirdinizmi?

***Bir çox qadının, eləcə də çoxsaylı kişinin imtina edə bilmədiyi kosmetik vasitə olan ətirlər real təhlükə mənbəyidir. Orijinalından saxtasına, firma istehsalından zirzəmilərdə şüşələrə doldurulanına qədər bütün ətirlər həm orqanizmi, həm də təbiəti zəhərləyir. Saysız-hesabsız marka adı altında satışa çıxarılan növbənöv ətirləri alarkən ən çox üstünlük verdiyimiz daha qalıcı qoxusu olanlardır. Elə ətirlər var ki, hətta paltar yuyulduqdan sonra belə qoxusu qalır. İndi, sadəcə, təsəvvür edin, kimyəvi maddələrlə ən azı 30 dəqiqə yuyulmuş paltarımızdan sevdiyimiz marka ətirin qoxusu bu qədər üstümüzdə qala bilirsə, görün ciyərlərimizdə nə qədər qalır və hansı fəsadları yaradır.***








Ətirlərin orijinalı da saxtası da insan orqanizmi üçün təhlükə ehtiva edir. Səbəbi də hazırlanmasında istifadə edilən yüzlərlə kimyəvi maddənin birləşdirilməsidir. Həm orijinal, həm də saxta ətirlərin təhlükəli olduğunu deyən ekspertlər onların qarşısı alınmaz xəstəliklər yarada biləcəyini deyirlər.

Həkim Sülhiyyə Mürsəlova deyir ki, orijinalına nisbətən ucuz olduğu üçün daha çox tələbat olan saxta ətirlərin içərisindəki kimyəvi qatqılar insana xərçəng kimi təhlükəli xəstəliyi "bəxş" edə bilər: "Axı biz alanda o ətirin hansı maddələrdən hazırlandığını, nələrdən əmələ gəldiyini bilmirik, nə olsun ki, deyirlər təbiidir, orijinaldır. Yalnız biznes maraqlarını güdən firmanı istehlakçının sağlamlığı maraqlandırmır. Paraben təhlükəsini bir çox insan bilmir, ətirlərin üzərində bu barədə heç bir məlumat yazılmır. Yazılsa da, əmin olun ki, bu, istehsalçı firmanın maraqlarını qoruyan bir açıqlama olacaq".



## "Paraben" bəşəriyyəti məhv edəcək

Bu gün bütün dünyada ətirlərin orqanizmə fəsadları barədə ən müxtəlif araşdırmalar aparılır. Bütün araşdırmaların nəticəsi isə eyni olur - ətirlər ağciyər xəstəliklərinin yaranması üçün zəmin hazırlayır və bu xəstəliklərə təkan verir.

Təsadüfi deyil ki, həkimlər yeni doğulan körpə ilə təmasda olan insanlara, xüsusilə də, körpənin anasına ətirdən istiadə etməyi məsləhət görmür, çünki kəskin kimyəvi qoxular körpənin ciyərlərinə pis təsir edir. Həkim deyir ki, insan çiyəri digər orqanlarla müqayisədə daha həssas orqandır, ekologiyanın hər gün bir az da çirklənməsi ciyərlərimiz üçün xeyli təhlükəlidir, bu təhlükədən əlavə hər gün kimyəvi maddələrin birləşməsi olan ətirlərə məruz qalmağımız gələcəkdə ağciyər xəstəliklərinin meydana çıxmasına imkan yaradır.

Bütün növ kosmetoloji vasitələrin içində "paraben" mövcuddur. Bu, bir növ qoruyucu kimyəvi maddədir. Şampun, saç kremi, makiyaj təmizləyicilər, nəmləndirici kremlər, dərini qaraldan kremlər, təraş kremləri, ətir kimi bir çox kosmetik vasitənin tərkibində var. Kosmetikaların tərkibində bu qədər çox istifadə edilməsində əsas məqsəd isə məhsulun saxlanma müddətini maksimum artırmaqdır.

## Hər toxumada 20 nanoqram!

Döş xərçəngindən əziyyət çəkən qadınların üzərində aparılan araşdırmalar sübut edib ki, sinələrindəki şişin hər toxumasında 20 nanoqram paraben var. Kosmetik vasitələrinizin üzərində papaben maddəsi "methylparaben", "ethylparaben", "benzylparaben" və ya "buthylparaben" formasında yazılır.

Tərkibində "paraben" olan bütün növ kosmetoloji vasitələr zərərlidir, bu maddə daha çox ətirlərin hazırlanmasında istifadə edilir. Kansorogen maddə olduğu üçün ətirlərin daha çox istehsalı ilə məşğul olan Fransada böyük mübahisələrə səbəb oldu. Məlumat üçün qeyd edim ki, bəzi Avropa ölkələrində tərkibində "paraben" olan kosmetik vasitələr qadağan edildi. Tərkibində "paraben"in olduğu məhsullar arasında körpələr üçün istifadə edilən kremlər də var.

Ətirlərin 97%-i neftdən alınan maddələrdən hazırlanır, hazırlanma prosesində bu maddələrlə birlikdə benzin və aldehidlər də yaranır ki, onlar da ətirlərin tərkibində olur. Ətirlər yalnız ondan istifadə edənlər üçün deyil, ətrafda həm sağlam, həm də miqrendən əziyyət çəkənlər üçün zərərlidir.

## Hamiləlik və laktasiya dövründə əsla!

Pediatr Pəri Həsənova deyir ki, ətirlərin tərkibində həddindən çox kimyəvi maddələr var, elə buna görə allergik dəri reaksiyalarına səbəb olan kosmetik vasitələr arasında birinci yeri ətirlər tutur: "Əgər ətirlərə qarşı allergiyanız varsa, bu məhsulları istifadə edəndə dərinizdə şiddətli allergik dəri reaksiyaları başlaya bilər. Qızartı, qaşınma, səpki kimi əlamətləri olur. Biz həkimlər uşaqlara ətir təmasının qəti əleyhinəyik. Bir də görürsən bir ana uşağını müayinəyə gətirib, uşaq elə bil ətir vannasına salınıb, hər tərəfi ətir qoxuyur. Təhlükəsini valideynə başa salırıq, növbəti ay müayinəyə gələndə eyni şey təkrarlanır".

Pediatr deyir ki, bu məsələyə hamiləlik vaxtından nəzarət etmək lazımdır: "Ginekoloqlar gərək pasiyenlərinə ətirdən istifadə etməyi qadağan eləsin. Çünki hamının orijinal ətir almaq imkanı yoxdur, zirzəmilərdə doldurulan saxta ətiri alıb istifadə edən hamilə bununla həm özünə, həm uşağına təhlükə yaradır. Əslində, biz həkimlər hamiləlikdə, laktasiya dövründə heç orijinal ətiri də məsləhət görmürük, çünki nə qədər əsl ətir deyilsə də, bilirik ki, o kimyəvi maddələrdən ibarətdir. Siz heç dərib güldana qoyduğunuz yasəmənin 1 həftə eyni qoxunu verdiyini görmüsünüzmü? 2 gün qoxuyur, sonra ətri hiss edilmir. Amma yasəmən ətirini istifadə edək, 1 həftə üstümüzdə qalacaq. Deməli, o ətiri qalıcı edən kimyəvi maddələr var".

Xüsusilə, dermotoloji problemləri olan qadınlara ətirin qadağan edilməsini vacib hesab edən pediatr uşaqları əmizdirmə dövründə ətirlə kontaktdan uzaq olmağı məsləhət görür. Körpəniz üçün istifadə etdiyiniz bəzi dəri kirşanlarında və kremlərində də yüksək dozada paraben var. Uşağın dərisi səpirsə, səpki əleyhinə krem əvəzinə zeyrun yağı, qaz yağı istifadə edin.

## Elmi araşdırmalar nə deyir?

Amerikada aparılan bir araşdırma nəticəsində məlum oldu ki, ətirlərin tərkibindəki "benzolin" adlı maddə insan orqanizmini məhv edir. Araşdırma zamanı siçanların nəfəs aldıqları oksigen ətirləndi, nəticələr elan ediləndə isə məlum oldu ki, ətirlər siçanların limfa düyünlərinin genişlənməsinə, dalaqlarının böyüməsinə, ağciyərlərində ləkə yaranmasına və eyni zamanda, qaraciyərlərinin böyük zərər görməsinə səbəb olub.

Rusiyada aparılan başqa bir araşdırma nəticəsində isə aşkar edildi ki, göz yaşarması, bəbəklərin quruması, ikili görmə, asqırma və öskürək, burunun tutulması, qulaqlarda küy və cingilti və ağrı, baş dönməsi, nəfəs darlığı, udqunmada problem, astma tutması, kəskin baş ağrıları, qısa müddətli yaddaş itkisi, diqqətsizlik, ürək bulanmaları, həyəcanlanma, tez-tez əsəbiləşmə, oynaq, damar və əzələ ağrıları, yüksək təzyiq, limfa toxumalarında şişlik kimi əlamətlərə səbəb olan ətirlər, əslində, insan orqanizminin düşmənidir.

Azərbaycanda ətirlərin insan orqanizminə təsiri ilə bağlı elmi araşdırma aparılmayıb. Amma ayrı-ayrı həkimlərin şəxsi mülahizələri bu kosmetik vasitənin zərərləri barədə ciddi düşünməyə əsas verir. Ətirlərin vərəm xəstəliyinə təkan verməsi isə dünya ölkələrində çoxdan təsdiqini tapmış məsələdir.

*Lalə Mehralı*

# Əminənin qatığı

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb*



Son dövrlərdə insanların həyat tərzi sürətli dəyişikliyə məruz qaldı. Təbii həyatdan tədricən süni həyata keçməyə başladıq. Buraya insan həyatı və sağlamlığı üçün ən vacib sahə olan qidalanma məsələsi də daxildir. Sosialist respublika dövründə qida istehsalı sahəsi əsasən dövlətin nəzarətində olduğu üçün yalnız təbii və keyfiyyətli qidalar istehsal və təklif olunurdusa, bazar iqtisadiyyatına keçəndən sonra bu sahə də özəlləşdi. Kapitalizmdə də şirkətlərin yeganə məqsədi bütün mümkün vasitələrlə maya dəyərini aşağı salmaq və daha çox gəlir əldə etməkdir. Əhalinin sağlamlığı heç kimi narahat etmir. Nəticədə, qidaların hazırlanmasında kimya sənayesinin "nemətlərindən" genbol istifadəyə keçildi, təbii qida əvəzinə qidanın imitasiya olan kimyəvi, saxta, keyfiyyətsiz məhsullar qida adı ilə satılmağa başlandı.

Hazırda həm ölkədə istehsal olunan, həm də xaricdən gətirilən qida məhsullarının böyük əksəriyyəti artıq təbii qidaya heç bir aidiyyatı olmayan naməlum mənşəli məhsullardır. Genetik modifikasiya olunmuş toxumlar yerli toxumları getdikcə sıradan çıxardı, nəticədə meyvə, tərəvəz, paxlalılar və sair məhsulların dadı duzu da getdi, təbiiliyi də, faydası da. İnsan üçün dərman olan qida artıq boş kütləyə çevrildi, nəinki fayda verməyə başladı, üstəlik sağlamlığa zərərli hala gəldi.

Emal olunmuş qidaların isə tərkibi təbilikdən çıxıb, ultrakimyəvi maddələrlə zənginləşdi. Məsələ təkcə iri təsərrüfatların, qida emalı zavodlarının və fabriklərinin istehsalı ilə bağlı deyil, fərdi şəxslər də istehsal etdikləri qidaya haram qatmağa, onu saxta şəkildə düzəltməyə, başqalarını aldadıb daha çox pul qazanmağa başladı. Kərə yağı, pendir, süd, bal və qida növlərinin saxtaları dükan-bazarı başına götürdü. Bir çox kəndlilər də daha çox qazanmaq üçün başqalarının sağlamlığını məhv etməyi üstün tutdular. Lakin az da olsa, hələ də vicdanını itirməmiş insanlar var ki, onlar uzun illərdir ki, təbii məhsul istehsal edir və insanlara təklif edirlər. Düzdür, onların qazancları saxtakarlardan xeyli az olur, amma bu şəxslər halal çörək yeməyi, haram bal yeməkdən üstün tuturlar.

Tovuzda yaşayan anam çox uzun illərdir ki, həmişə qatıq, süd alanda yalnız 1 nəfərdən alır. Binamızın həyətinə yaxın kənddən- Düz Cırdaxandan Əminə adlı bir qadın satmaq üçün qatıq, süd gətirir. Onun gətirdiyi südün, qatığın təbiliyindən, dadından doymaq olmur. Bakıya gəlib-gedən olanda anam bizə də Əminə xalanın məhsullarından göndərir. Mən süd sevməsəm də, qatıq yeməyi xoşlayıram. Başqa yerlərdə yediyim bütün qatıqlarla bunun fərqini aydın hiss edirəm.

Yayda məzuniyyət vaxtı Tovuzda gedəndə də həmişə ilk növbədə Əminə xalanın düzəltdiyi qatıqdan dadıram. Bəzən hansısa səbəbdən Əminə xala süd, qatıq gətirməyəndə anam məcburən başqa yerdən 1 litr alırdı, amma mən onun dadına baxan kimi fərqi tuturam və deyirəm ki, "yemirəm, bu Əminə xalanın düzəltdiyi qatıqdan deyil". Ona görə də, mən Tovuza gələnə yaxın anam məxsusi mənim üçün ehtiyatda həmişə "Əminənin qatığı"ndan saxlayır. Çox uzun illərdir ki, bu belə də davam edir. Əminə xala mənim üçün süd məhsulları üzrə əbədi və əvəzolunmaz bir brenddir, qatıq, süd barədə söhbət düşəndə gözümün qabağına Əminə xala gəlir.

Beləliklə, təxminən 20 il keçsə də, o dadın, o təbilliyin dəyişmədiyini ardıcıl formada və aydın şəkildə gördüm. Bu gün də evdə Əminə xalanın düzəltdiyi məhsullardan var və mən başqa yerlərdə məcburi qəbul etdiyim qatıqların heç birinin tam təbii qatıq olmadığını real müqayisədə görə bilirəm.

Əminə xala mənim nəzərimdə təkcə təbii və keyfiyyətli süd, qatıq istehsalçısı deyil, o vicdanlı, halal, təmiz adamın nümunəvi obrazıdır. İstənilən quruluşda, istənilən ağır şəraitdə, istənilən dövrdə halal insanlar mövcud olur, bəzən onların sayı az olur, bəzən çox. Amma beləleri heç bir halda öz insanlığını, öz vicdanını itirmir, beş-on manat artıq qazanmaq üçün insanları, körpələri zəhərləmirlər. Acından ölərlər, amma bunu etməzlər.

Mən bir tənqidçi jurnalist kimi, bütün yazılarımda həmişə problemləri göstərir, məsul hökumət orqanlarını, istehsalçı şirkətləri tənqid edirəm, çalışıram həmişə sadə xalqın tərəfindən çıxış edəm. Lakin insanlarımız da gərək özləri vicdanlı, düzgün, ədalətli olsunlar ki, başqalarından da bunu tələb etməyə üzləri olsun. Qidamıza haram qatmayaq, bir-birimizi aldadıb zəhərləməyək, Yaradanın bəxş etdiyi nemətləri təbii və sağlam şəkildə hazırlayıb başqalarına təqdim edək.

Bunu etməmək üçün heç bir bəhanə yoxdur və ola da bilməz. Sadəcə, insan olmaq kifayəfdir. Əsl insan öz ruzisini halal zəhməti, vicdanı ilə qazanmalıdır. Özü də halal çörək yeməlidir, başqalarına da halal məhsul yedirtməlidir. Hərdən, "bu çətin zəmanədə halal insan necə ola bilər" deyə soruşurlar. Cavab çox sadədir. Əminə xala kimi...

***Elçin Bayramlı***

# "Onlara hər cür iqtisadi, maliyyə dəstəyi verirlər"

**"Gürcüstan cəmiyyəti və siyasi qüvvələr demək olar ki, qəti şəkildə parçalanıb". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aydın Quliyev deyib. O bildirib ki, bu gün meydanlarda üz-üzə dayanan etirazçılar və hakimiyyət qüvvələrinin hər ikisinin seçimləri aydın və qətidir: "Meydandakılar Gürcüstanın Avropa ilə inteqrasiyasını müdafiə etməkdə qərarlıdırlar. Gürcüstan hakimiyyəti isə daha çox fərqli mülahizələrlə hərəkət edir.**

Meydan hərəkatının arxasında, təbii ki, Gürcüstan cəmiyyətində idarə olunan qüvvələr dayanır. Qərbin, Avropanın çoxdandır ki, bu ölkəyə mühüm təsir çarxları var. Demək olar ki, 1989-cu ildən indiyədək bu ölkədə Qərbin müxtəlif layihələr çərçivəsində idarə etdiyi ictimai-siyasi qüvvələr formalaşıb. Siyasi partiyalar yaranıb. Qeyri-hökumət təşkilatlarının sonsuz sayda böyük şəbəkəsi formalaşıb. Vətəndaş cəmiyyətinin fəalları və hüquq müdafiəçiləri bu şəbəkənin içərisindədirlər. Onlar müxtəlif vasitələrlə Qərb dairələrindən hərtərəfli dəstək alırlar. Məqsədləri də Gürcüstanı Avropa Birliyinə, Avropa strukturlarına inteqrasiya etdirmək, onun Kremlinlə əlaqələrini demək olar ki, kəsməkdən ibarətdir. Gürcüstan cəmiyyətinin aydın prinsiplərindən və qətiyyətli şəkildə parçalanması bu ölkədəki proseslərin gərginliyini təmin edən əsas faktordur. Görünür ki, nə meydandakı qüvvələr, nə də hakimiyyət qüvvələri öz prinsiplərindən çəkinmək niyyətində deyillər. Əslində meydanlardakı qüvvələri idarə edən xarici mərkəzlər də öz niyyətlərindən əl çəkmək fikrində deyillər. Çünki Gürcüstanda bu gün meydanda gedən proseslər Qərbin və Rusiyanın geosiyasi maraqlar uğrunda gedən mübarizəsinin ən kəskin formada təzahürüdür. Belə mübarizələr bir qayda olaraq böyük qarşıdurmalarla müşahidə olunur. Çox böyük ehtimalla Gürcüstanda da hadisələrin hələ bundan da gərgin olacağı gözlənilir".

"İstisna etmək olmaz ki, bu, hətta açıq küçə döyüşləri şəklində ola bilər, silahlı döyüşlər də gedə bilər. Əgər Gürcüstan hakimiyyəti daha kəskin addımlar atmasa, fikrimcə, Gürcüstandakı meydan hərəkatının asanlıqla sönəcəyi gözlənilmir. Çünki bunun arxasında Qərbin müəyyən geosiyasi mərkəzləri dayanır. Onlara hər cür iqtisadi, maliyyə dəstəyi verirlər. Hətta yeri gələndə ona hərbi dəstək verərək Gürcüstanın ikinci Ukrayna kimi cəbhə olaraq açılmasını da istisna etmirlər" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***








# Taksilərdə POS-terminallar nə vaxt quraşdırılacaq?



*Ekspert aydınlıq gətirdi*

**"Ümumiyyətlə, bilirsiniz ki, nağdsız hesablaşmalar artıq ölkədə çox sürətlə tətbiq olunmağa tətbiq olunmağa başlayıb. İnsanlar bu prosesə adaptasiya olublar. Daha çox kartla ödənişlərə üstünlük verilir. Bu mənada taksi xidmətinin təşkilində POS- terminalların olması çox vacib bir məsələdir". Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat eksperti İlqar Hüseynli deyib.**

İlqar Hüseynli sözlərinə belə davam edib: "Bu ona görə vacib məsələdir ki, birincisi, sərnişin və sürücü arasındakı bəzi mübahisəli məqamların aradan qaldırılmasına gətirib çıxaracaq. Məsələn, bir məsafəni qət etdikdə 5 manat 60 qəpik yazıbsa, onda sərnişin məcbur olur ki, 6 manat ödəsin. Çünki sürücüdən 40 qəpik almaq kimi imkanları olmur. Yaxud da əksinə. Amma kart varsa, POS-terminal qəpiyinə qədər ödənişi təmin edəcək. Bu da sürücü ilə vətəndaş arasındakı mübahisənin aradan qalxmasına səbəb olacaq.

İkincisi, bəzi hallarda sərnişin taksi xidmətindən istifadə etdiyi zaman üzərində iri məbləğli əskinazlar olur. Məsələn, 100 manat və 50 manat. Bu zaman sürücünün qalıq qaytarmağa imkanı olmur. Belə olan halda sürücü avtomobili saxlayır, müəyyən manevrlar edərək dükanlara girir ki, pul xırdalasın. Bu da müəyyən zaman itkisinə və komfortsuzluğa gətirib çıxarır.

Üçüncüsü, ölkədə yalnız yerli sərnişinlərə xidmət göstərilmir. Ölkəmizdə taksi xidməti həm də Azərbaycana gələn turistlə üçündür. Turistlər də bir ölkədən digərinə yollandıqda nağd puldan çox kartlardakı pula üstünlük verirlər. Bu zaman gələn turistlərin ödəniş məsələlərində də problem yaranır. Bu halda POS- terminalın olmasına zəruri ehtiyac yaranır. Bir daha bildirim ki, taksilərdə POS-terminalların olması olduqca vacibdir və bu məsələ həllini tapmalıdır".

***Ayşən Vəli***


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Ramazan bayramında 3 gün ardıcıl iş olmayacaq



Gələn il Ramazan bayramı ilə əlaqədar 3 gün ardıcıl qeyri-iş günü olacaq. SİA-nın xəbərinə görə, Nazirlər Kabinetinin qərarına əsasən, 2025-ci il martın 30 və 31-i Ramazan bayramı günləri müəyyən edilib. Gələn il 30 mart bazar gününə təsadüf etdiyi üçün Əmək Məcəlləsinə uyğun olaraq, 1 aprel qeyri-iş günü olacaq. Beləliklə, gələn il Ramazan bayramında ardıcıl 3 gün - 30 və 31 mart və 1 aprel qeyri-iş günləri olacaq.

# Binəqədidə pul və qızıl oğruları TUTULDU



Polis Binəqədidə oğurluq edən 2 nəfəri saxlayıb. SİA xəbər verir ki, Binəqədi rayonu M.Ə.Rəsulzadə qəsəbəsindəki evlərin birindən pul və 2700 manat dəyərində qızıl-zinət əşyalarının oğurlanması barədə polisə məlumat daxil olub. Binəqədi RPİ 4-cü Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə oğurluq əməlində şübhəli bilinən, əvvəllər dəfələrlə məhkum olunmuş 38 yaşlı A.Rəsulov müəyyən olunaraq saxlanılıb.

Binəqədi RPİ 43-cü Polis Bölməsi əməkdaşlarının keçirdikləri tədbirlərlə isə qəsəbə ərazisində yerləşən idman meydançasında bir nəfərin içərisində pulu və mobil telefonu olan çantasını oğurlamaqda şübhəli bilinən 33 yaşlı T.Fehruzlu saxlanılıb. Hər iki faktla bağlı araşdırma aparılır.


## ELAN

06.12.2024-cü il tarixində çap olunmuş elanda dəyişiklik olaraq Metodika və pedaqoji hazırlıq kafedrasında dosent vəzifəsi İxtisas fortepiano kafedrasında dosent vəzifəsi ilə əvəz olunsun.

***

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir

**Fortepiano, orqan və klavesin kafedrası**
**Dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru**

Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır. Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər. Bakı şəhəri, AZ - 1014. Ş.Bədəlbəyli küçəsi 98



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**